QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan UNESCO-nun Hökumətlərarası Komitəsinə üzv seçilib




4

# "Azərbaycanın köməyini unutmayacağıq!"




4

SƏS
№ 107 (7275)
21 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

*Türkiyə və Şimali Kipr mediası Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsindən yazır*

# Azərbaycan uğurları ilə yeni tarix yazır



11

## Urbanizasiya: şəhərlər "partlayır", kəndlər boşalır



14

## DİQQƏT: Onlayn satış edənlər artıq vergi ödəyəcəklər




16

## Ömrümüzə gələn YAY...



9

## Çoxkonfessiyalı, çoxmillətli dövlət

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 24 il ötür*




8

## "Xaricə təhsil almağa gedən gənclərin sayında ciddi artım var"



12

# "Azərbaycanda idmanın bütün növlərinə dövlət qayğısı göstərilir"





## *Prezident İlham Əliyev UFC-nin prezidentini qəbul edib*



***İyunun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ultimate Fighting Championship"in (UFC) prezidenti, amerikalı sahibkar Deyna Uaytı qəbul edib. Azərbaycana səfərdən məmnunluğunu ifadə edən Deyna Uayt Bakıda keçiriləcək UFC turnirinə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğuladı və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.***

Dövlətimizin başçısı UFC turnirinin ölkəmizdə ilk dəfə təşkil edilməsinin əhəmiyyətinə toxundu, onun davamlı olacağına ümidvarlığını bildirdi və bu tədbirin Azərbaycanın dünyada idman ölkəsi kimi daha çox tanıdılması baxımından rolunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə göstərilən dövlət qayğısından söhbət açıldı, son illərdə idmançılarımızın dünya səviyyəli mühüm yarışlarda qazandıqları uğurlar vurğulandı, gənc nəsildə idmana həvəsin təbliğ edilməsi istiqamətində görülən işlərə toxunuldu. Görüşdə indiyədək ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkil edilməsindən məmnunluq ifadə olundu, UFC turnirinin də bu cür keçiriləcəyinə əminlik bildirildi.



# "Azərbaycanla Özbəkistan çox sayda birgə layihələr həyata keçirir"

## *Prezident İlham Əliyev Özbəkistanın investisiya, sənaye və ticarət nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edib. Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfərinin ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Azərbaycanla Özbəkistanın çox sayda birgə layihələr həyata keçirdiyini məmnunluqla vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, bütün sahələrdə əlaqələrimizin sıx dostluq xarakteri daşımasının göstəricisidir.

Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Özbəkistan dövlətinin başçısı qardaş Azərbaycana nəzərdə tutulan səfərinə hazırlaşır və bu səfəri konkret praktiki məzmunla zənginləşdirmək üçün hökumətə tapşırıqlar verib. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, ötən il Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı iki ölkənin prezidentlərinin qarşıya qoyduqları yeni prioritet istiqamətlər üzrə fəal iş aparılır. Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı məmnunluqla vurğulandı, sənaye kooperasiyası, nəqliyyat, logistika əlaqələrinin daha da genişləndirilməsi və yeni birgə layihələr barədə fikir mübadiləsi aparıldı.

# Dostluq və həmrəyliyin rəmzi: “Azərbaycan" məhəlləsi!






***“Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub". Bu sözləri Prezident İlham Əliyev Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimində çıxışında söyləyib. Dövlətimizin başçısı bildirib ki, bu gün Azərbaycan məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür".***

## *Prezident İlham Əliyev: "Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir"*

Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Azərbaycan- Türkiyə birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir, uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və Türkiyə həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Əlbəttə ki, Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. ”Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir”, - deyə Prezident bildirib.

### “AZƏRBAYCAN XALQI BU FACİƏNİ (2023-CÜ İL FEVRALIN 6-DA BAŞ VERƏN ZƏLZƏLƏNİ) ÖZ FACİƏSİ KİMİ QƏBUL ETDİ”

Bildiyimiz kimi, Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirdi. ”Azərbaycan xalqı bu faciəni (2023-cü il fevralın 6-da baş verən zəlzələni) öz faciəsi kimi qəbul etdi” – deyən Prezident bildirib ki, ilk gündən qardaşlıq borcunu yerinə yetirmək üçün on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində humanitar yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq yardımını göstərməyə başlamışdır. Azərbaycan Prezident ionu da bildirib kimi, Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır: ”Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir”.

2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu. Fəlakətin ilk günlərindən qardaş ölkəyə kömək üçün Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edildi. Axtarış-xilasetmə işlərində iştirak etməklə yanaşı, ölkəmizin həm dövlət qurumlarının, həm də qeyri-hökumət təşkilatlarının səyləri digər istiqamətlərə yönəldildi.

Dövlətimizin başçısının digər bir mühüm tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda ”Azərbaycan” məhəlləsinin inşasına start verildi. Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirildi. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq. 2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları olub. ”Azərbaycan” məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

### “AZƏRBAYCAN” MƏHƏLLƏSİNİN YARADILMASI DA ÇOX GÖZƏL HADİSƏDİR”

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ”Azərbaycan” məhəlləsinin açılışını ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı ”Azərbaycan” məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Üçmərtəbəli müasir məktəb və uşaq bağçası binasında 20 ibtidai sinif otağı, 3 uşaq bağçası otağı var. Burada təhsilə dəstək məqsədilə əlavə otaqlar da uşaqların ixtiyarına verilib. Binada zəruri tədris materialları ilə təchiz olunmuş fənn otaqları, musiqi, rəsm, əmək dərslərinin keçirilməsi üçün otaqlar, texnologiya, riyaziyyat və mühəndislik sahələrində bacarıqların təkmilləşdirilməsi üçün emalatxanalar yaradılıb. ”Azərbaycan” məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq”, - deyə Azərbaycan Prezidenti bildirib.

### RƏCƏB TAYYİB ƏRDOĞAN: ”“AZƏRBAYCAN” MƏHƏLLƏMİZ BİZİM ƏN MÖTƏBƏR LAYİHƏLƏRİMİZDƏN BİRİDİR, QÜRUR TABLOMUZDUR”

Əlbəttə ki, hər zaman güclü dövlət olan Türkiyə bütün çətinliklərdən məğrur çıxdığı kimi, bunun da öhdəsindən gəldi. ” Bəli, bu gün burada ”Bir millət, iki dövlət” şüarının həyata keçməsinə bir daha şahidlik edirik. Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. ”Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan”, - deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin”, - deyə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bildirib. Türkiyə Prezidenti onu da bildirib ki, “Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur: ”Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, inşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir ”.

### “ŞUŞA BƏYANNAMƏSİ BİZİM MÜNASİBƏTLƏRİMİZİ RƏSMƏN MÜTTƏFİQLİK SƏVİYYƏSİNƏ QALDIRMIŞDIR”

Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə dövlətlər arasında əlaqələri ən yüksək zirvəyə qaldıraraq, gələcək işbirliyinin təminatında mühüm sənəd kimi tarixdə yer aldı. Azad edilmiş Şuşa şəhərində imzalanan Birgə Bəyannamə dövlətlərarasında əməkdaşlıqda strateji əhəmiyyət kəsb edir. 1921-ci il tarixli Qars müqaviləsinə əsasən, Naxçıvanın təhlükəsizliyinin təminatçısı olan Türkiyə 100 ildən sonra imzalanan Şuşa Bəyannaməsi ilə bütövlükdə Azərbaycanın, ümumilikdə isə regionun təhlükəsizliyinin zəmanəti qismində çıxış edir. Şuşa Bəyannaməsi diplomatiya tariximizin ən mühüm sənədlərindən biri hesab olunur.

Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı ifadələr də yer almışdı. Belə ki, sənəddə bir sıra məsələlərlə yanaşı, Zəngəzur dəhlizinin siyasi-iqtisadi əhəmiyyəti diqqətə çatdırılaraq, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulub. Bəyannamə iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırdı və qardaş dövlətlər dünyaya birlik mesajlarını vermiş oldular. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirdiyi kimi, ”Dörd il bundan əvvəl hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim münasibətlərimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim münasibətlərimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik, həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə Türkiyə və Azərbaycan iki qardaş ölkə bir-birinin yanında inamla uğurla irəliləyir”. Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib. Qardaş ölkələr arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələrdir və milli maraqlarının qorunmasında qətiyyətli mövqe nümayiş etdirirlər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Azərbaycanın köməyini unutmayacağıq!”

*Türkiyə və Şimali Kipr mediası Kahramanmaraşdakı “Azərbaycan” məhəlləsindən yazır*





İHA Abone Gündem Politika Ekonomi Dünya Asayiş Spor Video Yerel Belgesel Daha
POLİTİKA · 19 Haziran 2025 Perşembe 20:45
Cumhurbaşkanı Erdoğan ve Aliyev, Kahramanmaraş’ta depremzede bir aileyi ziyaret etti



***Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı telekanalları, qəzetləri, informasiya agentlikləri və xəbər portalları Azərbaycan Prezidenti İlham Əliyevin Kahramanmaraş şəhərinə səfərini, iki qardaş ölkənin liderlərinin “Azərbaycan” məhəlləsinin açılışında iştirakını geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, iki ölkə arasında dostluq və qardaşlığın sarsılmaz olduğunu vurğulayan dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin çıxışları bu ölkələrin media orqanlarının diqqət mərkəzində olub.***

Materiallarda Türkiyə liderinin 2023-cü ilin fevralında baş vermiş zəlzələlərin nəticələrinin aradan qaldırılmasında Azərbaycanın rolu ilə bağlı söylədiyi fikirlər sitat gətirilir, ölkəmizin Kahramanmaraş şəhərinin bərpasına verdiyi töhfədən bəhs edilir.

Sərlövhələrdə digər mühüm fikirlər ilə yanaşı, Prezident Rəcəb Tayyib Ərdoğanın “Azərbaycanın köməyini unutmayacağıq” sözləri də yer alır. İki qardaş ölkənin liderlərinin Kahramanmaraşda yaşayan ailələrdən birinə baş çəkməsi ilə bağlı ayrıca materiallar hazırlanıb. Azərbaycan və Türkiyə prezidentlərinin Kahramanmaraşın “Azərbaycan” məhəlləsində yerləşən Heydər Əliyev adına ibtidai məktəblə tanış olması da medianın diqqət mərkəzində olub.


Milliyet Son Dakika Gündem Yazarlar Ekonomi Dünya Resmi İlanlar
‘Azerbaycan’ın yardımını unutmayız’
20.06.2025 - 07:01 | Son Güncellenme: 20.06.2025 - 07:02
KAHRAMANMARAŞ AA
#Azerbaycan #Afet Konutları #Deprem
Cumhurbaşkanı Erdoğan ve Azerbaycan Cumhurbaşkanı Aliyev, Kahramanmaraş’taki ‘Azerbaycan Mahallesi’nde 250 Bininci Afet Konutu Anahtar Teslimi ve Kura Çekim Töreni’ne katıldı. Erdoğan, “Felaketin haberini alır almaz ‘seninleyim Türkiye’m’ diyerek kardeş kömeği başlatan, Azerbaycan halkının dayanışmasını hiçbir zaman unutmayacağız” dedi.


Hürriyet GÜNDEM DÜNYA BİGPARA SPOR ARENA KELEBEK YAŞAM YAZARLAR RESMİ İLANLAR
Erdoğan ve Aliyev'den Kahramanmaraş'ta depremzede bir aileyi ziyaret
Güncelleme Tarihi: Haziran 19, 2025 19:45
#Cumhurbaşkanı Erdoğan #Aliyev #Depremzede




# Azərbaycan UNESCO-nun Hökumətlərarası Komitəsinə üzv seçilib

***Azərbaycan Respublikası UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, seçkilər iyunun 20-də UNESCO-nun mənzil-qərargahında, “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə” dair 2005-ci il Konvensiyasının 10-cu Tərəflər Konfransı çərçivəsində baş tutub.***

Qeyd edilib ki, 2005-ci il Konvensiyasının həyata keçirilməsinə nəzarət edən əsas icra orqanı kimi Hökumətlərarası Komitənin 24 üzvü vardır və üzvlərin səlahiyyət müddəti 4 ildir. Azərbaycan daha öncə 2019-2023-cü illər arasında Hökumətlərarası Komitədə təmsil olunub.

İllik əsasda toplanan Hökumətlərarası Komitənin əsas funksiyaları sırasına Konvensiyanın məqsədlərinin təşviqi, onun həyata keçirilməsinin monitorinqi, tərəflərin dövri hesabatlarının təhlili və Konfransa təqdim olunması, əməliyyat təlimatlarının hazırlanması, ölkələr tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq tövsiyələrin verilməsi, eləcə də Konvensiyanın prinsiplərinin digər beynəlxalq forumlarda təşviqi məqsədilə məsləhətləşmə mexanizmlərinin qurulması daxildir.




Azərbaycanın sözügedən Komitəyə növbəti dəfə üzv seçilməsi ölkəmizin mədəni müxtəlifliyin qorunması, mədəni ifadə azadlığının təşviqi və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü siyasətinin, həmçinin bu sahəyə verdiyi yüksək önəmin bariz göstəricisidir.





# Cənubi Qafqazda yeni nizam

***Ermənistanın baş nazir Nikol Paşinyan Türkiyəyə işgüzar səfərə gedib. Onu İstanbul beynəlxalq hava limanında Türkiyə xarici işlər nazirinin müavini Berris Ekinci qarşılayıb. Axşam Nikol Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcək. Paşinyanın rəhbərlik etdiyi nümayəndə heyətinə xarici işlər naziri Ararat Mirzoyan, xarici işlər nazirinin müavini Vaan Kostanyan, həmçinin Ermənistanın Türkiyə ilə münasibətlərin normallaşdırılması prosesində xüsusi nümayəndəsi, parlamentin vitse-spikeri Ruben Rubinyan daxildir. Səfər çərçivəsində Nikol Paşinyan İstanbulun erməni icmasının nümayəndələri ilə görüşü də nəzərdə tutulub. Qeyd edək ki, bu səfər Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə baş tutub.***



Maraqlıdır ki, bundan əvvəl Azərbaycan Prezidenti İlham Əliyev işgüzar səfəri çərçivəsində Türkiyə lideri ilə görüşüb. Bununla bağlı mətbuat Cənubi Qafqaz respublikalarının rəhbərlərinin Ankarada sülh müqaviləsi imzalamaq üçün danışıqlar apara biləcəyini irəli sürürdü, lakin İrəvan bu məlumatı təkzib etdi. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın dediyi kimi, ölkə hakimiyyəti Türkiyə ilə diplomatik münasibətlərin tənzimlənməsi və sərhədlərin açılması üzərində işi davam etdirir. "Bu, bizim nail olmaq istədiyimizin ideal variantı deyil, lakin biz irəliləyiş görürük", - Qriqoryan bildirib.

Öz növbəsində, parlamentin spikeri Alen Simonyan bunun nə cür səfər olacağını deyə bilməyib: işçi və ya rəsmi, lakin bu, şübhəsiz ki, tarixi olacaq. "Səfər çox vacibdir, bu, müstəqillik əldə etdikdən sonra ilk ikitərəfli səfərdir. Xüsusilə də bu təlatümlü regionda mən hesab edirəm ki, bizim Türkiyə ilə danışmaq və bir-birimizi anlamağımız lazımdır. Hazırda Ermənistan-Türkiyə münasibətlərinin nizamlanması məsələsi gündəmdədir.

## *Paşinyanın Türkiyəyə səfəri nə vəd edir?*



Xatırladaq ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi 1990-cı illərin əvvəllərindən davam edir. O cümlədən, istisnasız olaraq bütün Ermənistan prezidentləri Türkiyə başçıları ilə görüşüblər. Məsələn, 1993-cü ildə Levon Ter-Petrosyan Türkiyə lideri Turqut Özalın dəfn mərasimində iştirak edib. 1999-cu ildə Robert Köçəryan təşkilata üzv olan bütün ölkələrin ərazi bütövlüyünün tanınmasından bəhs edən ATƏT-in İstanbul Bəyannaməsini imzalayıb. 2009-cu ildə Serj Sarkisyan futbol diplomatiyası deyilən iş çərçivəsində Türkiyəyə səfər edib. Paşinyan üçün bu, onun ikinci səfəri olacaq. O, ilk dəfə 2023-cü ildə Ərdoğanın andiçmə mərasiminə gələndə baş nazir kimi Ankaraya səfər edib.

Hazırda danışıqlar prosesinin əsas mövzusu 1993-cü ildən bağlanan ölkələr arasında quru sərhədinin açılmasıdır. Müvafiq razılıq 2022-ci ildə əldə olunub, lakin o vaxtdan bəri heç bir irəliləyiş yoxdur. Eyni zamanda Ermənistan Türkiyə ilə sərhəddə yerləşən Marqara kəndindəki sərhəd-keçid məntəqəsini təmir etdirərək, onun istismara hazır olduğunu vurğulayıb. Öz növbəsində Ankara təkid edir ki, ikitərəfli münasibətləri nizamlamazdan əvvəl İrəvan ilk növbədə Bakı ilə sülh müqaviləsi bağlamalıdır. Paşinyanı tənqid edən erməni mediası – "Hraparak" onun İlham Əliyevlə oktyabrın 20-də görüşə biləcəyini iddia edib. "Tərəflər Ərdoğanın vasitəçiliyi ilə üçüncü tərəfin hərbi mövcudluğunu istisna edəcək saziş imzalamaq barədə razılığa gələ bilərlər. Başqa sözlə, Rusiyanın 102-ci hərbi bazası Ermənistandan çıxarılacaq. Sazişin əlavəsi də olacaq ki, bu da Azərbaycan tərəfinin bütün digər tələbləri kimi, 300 min azərbaycanlının indiki Ermənistandakı evlərinə qaytarılmasıdır", nəşr xəbər verib. Paşinyan isə "Hraparak"ı məhkəməyə verəcəyi ilə hədələyib.

Politoloq Arşaluys Mqdesyan hesab edir ki, qarşıdan gələn görüş yalnız format baxımından tarixi ola bilər. "İndiyədək Ermənistan liderləri bəzi beynəlxalq tədbirlər, futbol matçları və ya dəfn mərasimləri çərçivəsində Türkiyəyə səfər edib. İndi Ərdoğan Paşinyanı şəxsən dəvət edib. Ola bilsin, səfər zamanı Paşinyan Əliyevlə görüşsün. Bu ehtimalı tamamilə istisna etmək olmaz", - Mqdesyan bildirib.

Eyni zamanda ekspert bu səfərin nəticə baxımından tarixi olacağına şübhə edir. "Hələlik biz Türkiyənin Ermənistana və ya Azərbaycana yanaşmasını dəyişməsini görmürük. Ankara İrəvanla diplomatik münasibətləri Ermənistan-Azərbaycan sülh müqaviləsinin bağlanması ilə əlaqələndirib və bağlamaqda davam edir. İndi Türkiyə hakimiyyəti bu məsələni o qədər də sıxışdırmır, ancaq bu, sadəcə ona görədir ki, Bakı ikinci Qarabağ müharibəsi başlayandan bəri artıq çox şeyə nail olub. Eyni zamanda, sülh müqaviləsi yaxın gələcəkdə Azərbaycan tərəfinin irəli sürdüyü şərtlərlə imzalanması mümkün deyil", - deyə Mqdesyan yekunlaşdırıb. Bakı Ermənistandan müstəqillik bəyannaməsi qeydini Konstitusiyadan çıxarmağı tələb edir və ATƏT-in Minsk qrupunun ləğvində israrlıdır.

### Paşinyan tənqidlərə, yoxsa təhqirlərə dözmür?

Erməni Apostol Kilsəsi ilə kəskin münaqişəyə girən Ermənistanın baş naziri Nikol Paşinyan indi onun nəzarətində olmayan bizneslə qarşıdurmaya girib. Baş nazirlə münaqişədə ruhanilərə dəstək verən "Taşir" Şirkətlər Qrupunun rəhbəri Samvel Karapetyan respublikada hakimiyyəti ələ keçirməyə çağırışda ittiham edilib və iki ay müddətinə həbs edilib. Və iş milyarderin siyasi bəyanatlarına aid olsa da, hakimiyyət onun biznesini yoxlamağa başlayıb. Nikol Paşinyan açıq şəkildə biznesmeni Ermənistana məxsus Elektrik Şəbəkələrini milliləşdirməsi ilə hədələyib. Bu proseslər fonunda İrəvanın Moskva ilə münasibətləri də korlanır, iş adamının saxlanma səbəblərini ən azı "qəribə" hesab edir.

İyunun 17-də axşam saatlarında polis əməkdaşları iş adamı Samvel Karapetyanın İrəvandakı evində axtarış aparmağa gəliblər. Ermənistan Daxili İşlər Nazirliyindən verilən məlumata görə, istintaq hərəkətləri zamanı bir qrup şəxs saxlanılıb. Daha sonra iş adamının nümayəndələri aydınlaşdırıblar ki, söhbət Karapetyanın polis əməkdaşlarının ona yaxınlaşmasına imkan verməyən 50 nəfər tərəfdarından gedir. Buna baxmayaraq milyarder Ermənistan Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə, oradan isə birbaşa məhkəməyə aparılıb. Və artıq iyunun 18-də səhər tezdən Nikol Paşinyanın Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyanı vəzifəsindən azad etmək qərarına gəldiyi məlum olub. "Hraparak" qəzetinin mənbələrinin məlumatına görə, buna səbəb sonuncunun Samvel Karapetyanı zorla saxlamaqdan imtina etməsi olub.

Samvel Karapetyan erməni əsilli Rusiya sahibkarıdır. 1997-ci ildə o, "Kaluqaqlavsnab" şirkətini alıb, onun əsasında 1999-cu ildə "Taşir" tikinti-sənaye müəssisəsini yaradıb. 2000-ci ildə eyniadlı xeyriyyə fondu təsis edib. Forbes-in məlumatına görə, Karapetyan 3,2 milyard dollar sərvəti ilə rusiyalı milyarderlərin reytinqində 44-cü yerdədir.

Ardı Səh. 6

RAKURS





# Cənubi Qafqazda yeni nizam



Əvvəli-Səh-5

Daşınmaz əmlak, enerji, bank və ictimai iaşə sektorlarında 200-dən çox şirkət ”Taşir” brendi altında fəaliyyət göstərir. 2024-cü ildə şirkət 640 milyon dollar icarə gəliri ilə Forbes-in ”Rusiya Əmlakının Kralları” reytinqində ikinci yeri tutur.

Axtarışlara başlamazdan bir neçə saat əvvəl biznesmen mətbuata müsahibəsində Ermənistan hökumətini Erməni Apostol Kilsəsinə (EAK) hücumlara görə tənqid edib: Ötən həftə Nikol Paşinyan bütün ermənilərin katolikosu II Qaregini onun subaylıq andını pozmaqda ittiham edib və EAK-ın yeni rəhbərinin seçilməsinə çağırıb. ”Erməni xalqının tarixini, erməni kilsəsinin min illik tarixini unudan kiçik bir qrup erməni kilsəsinə, erməni xalqına hücum etdi. Mən həmişə erməni kilsəsinin və erməni xalqının tərəfində olmuşam. Əgər siyasətçilər vəziyyəti həll edə bilməyəcəklərsə, o zaman biz kilsəyə qarşı bu kampaniyaya müdaxilə edəcəyik” - deyə kilsəyə uzun illər maliyyə yardımı göstərən Karapetyan bildirib. Məhz bu açıqlama, iş adamının özünün və müdafiəsinin fikrincə, təhlükəsizlik orqanlarının ona gözlənilməz diqqət yetirməsinə səbəb olub.

Daha sonra açıqlanan rəsmi versiyaya görə, Samvel Karapetyan hakimiyyəti ələ keçirməyə açıq çağırışda (Ermənistan Cinayət Məcəlləsinin 422-ci maddəsinin 2-ci hissəsi) ittiham edilib və İstintaq Komitəsi onun həbsə alınmasını tələb edib. Çərşənbə günü, iyunun 18-də onlarla insan 7 saatdan çox məhkəmə binasının qarşısında dayanaraq, iclasın bitməsini və yekun qərarı gözləyirdi. İclasdan 3 saat sonra vəkil Armen Feroyan iş adamının iki ay müddətinə həbs edildiyini bildirib. Samvel Karapetyan təqsirini boynuna almayıb və müdafiə tərəfi onun həbsindən apellyasiya şikayəti vermək niyyətindədir. ”Samvel Karapetyana qarşı irəli sürülən ittihamlar açıq-aşkar təzyiq cəhdidir. Samvel Karapetyan həmişə erməni xalqının, Erməni Apostol Kilsəsinin maraqlarını və milli dəyərlərini müdafiə edərək öz çıxışını bildirib və çıxış etməkdə davam edir”, - biznesmenin mətbuat xidməti qeyd edib.

Öz növbəsində Nikol Paşinyan Samvel Karapetyanın kilsəni dəstəkləyən bəyanatlarını sadəcə “ekran” adlandırıb. ”Onlar elə təəssürat yaratmağa çalışıblar ki, kimlərsə haradansa Ermənistana gəlib buradakı problemləri öz üsulları ilə həll edə bilər. Ermənistanın konkret cavab rıçaqları var və mən heç kimin özlərinə belə şeylər deməsinə dözməyəcəyəm. Kim desə ki, siyasətçilər işləməsə, biz öz üsulumuzla müdaxilə edəcəyik, ona adekvat cavab veriləcək”, - o deyib.




Və sonra baş nazirin sözlərindən məlum oldu ki, məsələ çox güman ki, yalnız bir həbslə həll olunmayacaq. Hökumət başçısının sözlərinə görə, “Taşir Group”-a məxsus Ermənistanın Elektrik Şəbəkələri ölkədə daxili narazılığı oyatmaq üçün uzun müddətdir ki, qəsdən enerji böhranı yaradır. Məlum olduğu kimi, bir ay əvvəl Nikol Paşinyan ultimatum verib: EEŞ əhaliyə elektrik enerjisinin kəsilməsi nəticəsində dəymiş itkiləri ödəməlidir, yoxsa onlar milliləşdiriləcək (o, sözügedən məbləği dəqiqləşdirməyib). ”Sərəncamın müddəti iyunun 21-də başa çatır”, - baş nazir iş adamına ultimatumunun son tarixini bildirib.

Ermənistanın elektrik şəbəkələri Samvel Karapetyanın Ermənistandakı ən böyük aktividir. Şirkət 1 milyondan çox istehlakçıya xidmət göstərir və bütün istehsal şirkətlərindən elektrik enerjisinin yeganə alıcısı və ölkə üzrə abonentlərə elektrik enerjisinin yeganə satıcısıdır. Ekspertlər xəbərdarlıq edirlər ki, EEŞ-in milliləşdirilməsi respublikanın investisiya cəlbediciliyinə təsir etməklə yanaşı, həm də ölkənin elektrik enerjisi bazarının liberallaşdırılmasına zidd̈ir və iqtisadi risklərlə bağlıdır.

### ”Ermənistanın elektrik şəbəkələri” nədir?

İş adamının digər aktivləri də Ermənistan hüquq-mühafizə orqanlarının diqqətinə düşüb. Bu həftə 36 “Pizza Taşir” iaşə məntəqəsində yoxlamalar aparılıb, qida təhlükəsizliyinə nəzarət orqanı onlardan dördünün fəaliyyətini standartların pozulması ilə əlaqədar dayandırıb. Eyni zamanda şirkətlər qrupu nə Ermənistanda, nə də Rusiyada biznes üçün risk görmədiklərini vurğulayıb. İş adamı ətrafında baş verənlər Rusiyada da diqqət çəkib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Moskva Rusiya vətəndaşlığı olan və “qəribə bəhanələrlə” ittiham olunan Samvel Karapetyan ətrafında vəziyyəti diqqətlə izləyir. Və Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Komitəsinin Rusiya bölməsinin vitse-prezidenti İvan Melnikov Ermənistan Baş Prokurorluğuna müraciətində Samvel Karapetyanın hüquq və azadlıqlarına hörmətlə yanaşılması üçün tədbirlər görülməsinə çağırıb.

Moskvanın reaksiyası və İrəvanda narazılıq

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Rusiya tərəfinə nota göndərildiyini, Rusiya KİV-lərinin bu mövzuda yaydığı bəyanatların təkcə ölkənin “daxili işlərinə birbaşa və açıq müdaxilə” deyil, həm də onun suverenliyinə və demokratiyasına qəsd adlandırıldığını açıqlayıb. Ermənistan hakimiyyətinin Samvel Karapetyana qarşı kampaniyası, deyəsən, tam düşünülmüş deyil və qəbul edilən qərarlar daha çox Ermənistanda çox nüfuzlu şəxs sayılan milyarderin tənqidi bəyanatlarına emosional reaksiyadır. Görünür, bunu edən insanlar özlərini çox etibarsız hiss edirlər. Nikol Paşinyan çox impulsiv hərəkət edir və təkcə kilsə və ya Samvel Karapetyanla deyil, həm də Rusiya ilə münasibətlərdə.

### “Joqovurd”: Paşinyan niyə Ankaraya getdi?

Ermənistanın baş naziri Nikol Paşinyan və komanda yoldaşları Türkiyəyə səfərinin məqsədlərini bağlı qapılar arxasında müzakirə ediblər. Bu barədə “Joqovurd” qəzeti özünün etibarlı mənbələrinə istinadən yazır. “Mənbələrimizin məlumatına görə, Paşinyan bildirib ki, o, Ankaraya prezident Rəcəb Tayyib Ərdoğanla görüşməyə gedir - sülh sazişi üzrə danışıqlar məqsədilə. Əldə etdiyimiz məlumata görə, baş nazir vurğulayıb ki, 2026-cı il seçkilərinə qədər nəyin bahasına olursa-olsun Azərbaycanla “Sülh” adlı sənəd imzalamaq lazımdır. Siyasi komanda bunu öz gücünün təkrar istehsalına zəmanət verən strateji addım hesab edir.

**V.VƏLİYEV**

# Biz bu tarixi dönüşü alqışlamalıyıq - PAYTAXT SAKİNLƏRİ DANIŞDI

***Azərbaycanın yaxın tarixində yeni bir səhifə açan "Böyük Qayıdış" proqramı təkcə strateji və iqtisadi baxımdan deyil, həm də mənəvi və emosional cəhətdən dərin təsirə malikdir. Uzun illər işğal altında qalmış torpaqlarımızın azad olunmasından sonra bu torpaqlara geri dönüş prosesi, yəni əsl mənada doğma yurda qayıdış artıq reallığa çevrilib. "Böyük Qayıdış" proqramı məhz bu dönüşün sistemli, təhlükəsiz və davamlı şəkildə həyata keçirilməsini təmin edən mühüm bir dövlət layihəsidir.***

Bu proqram təkcə insanların fiziki olaraq doğma yurdlarına köçürülməsi ilə məhdudlaşmır; o, həm də xalqın illərlə içində yaşatdığı vətən həsrətini, torpaq sevgisini, tarixə və köklərə bağlılığını gerçəkləşdirir. Buna görə də bu təşəbbüs cəmiyyətin bütün təbəqələrində, xüsusilə də köçkün həyatı yaşamış ailələrdə dərin emosional rezonans doğurur. İnsanlar bu prosesi həm qürur, həm də ümidlə qarşılayır, Qarabağ və Şərqi Zəngəzurda həyatın yenidən canlanması onları böyük həyəcanla izləməyə vadar edir. Beləliklə, "Böyük Qayıdış" proqramı insanlarda təkcə sevinc və fərəh deyil, eyni zamanda güvən, inam və gələcəyə böyük ümid hissləri də oyadır. Bu proqram, həm tarixi ədalətin bərpası, həm də milli birliyin təntənəsi kimi qiymətləndirilir.

"Böyük Qayıdış" proqramı insanlar üçün nə ifadə edir? SİA mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu aparıb.



**Şəhər sakini Oqtay Heydərov:** "Mən Qarabağ rayonundanam. İllərlə həsrətində olduğumuz doğma torpaqlarımızın işğaldan azad edilməsi mənim və mənim kimi minlərlə insanın həyatında unudulmaz bir dönüş nöqtəsi oldu. Qarabağ azad olunandan sonra oraya getmək, doğulub boya-başa çatdığım yerləri yenidən görmək mənim üçün bəlkə də həyatda yaşadığım ən böyük sevinclərdən biri idi. Hər addımda uşaqlıq xatirələrim gözlərimin önünə gəlirdi. Torpağın qoxusu, dağların sükutu, bulaqların pıçıltısı – hamısı sanki illərlə məni gözləmişdi. Bu duyğular sözlə ifadə ediləsi deyil. İllərlə içimizdə yaşatdığımız həsrət, bu gün böyük bir qürura və sevincə çevrilib. Ən əsası isə, bu günü bizə yaşadan güclü dövlətimiz və müzəffər ordumuzdur. Məhz onların sayəsində biz torpaqlarımıza qovuşduq, haqq olan zəfəri əldə etdik. Bu gün Qarabağda aparılan bərpa və quruculuq işlərini görmək də insanın ürəyini fərəhlə doldurur. Hər tikilən məktəb, hər çəkilən yol, salınan yeni yaşayış məhəllələri gələcəyə ümidimizi daha da artırır. Dövlətimizin bölgəyə göstərdiyi diqqət və qayğı danılmazdır. Qarabağ yenidən dirçəlir, yenidən canlanır və biz bu dirçəlişin canlı şahidiyik. Çox şükür ki, bu günləri yaşamaq bizə qismət oldu. Bu gün mən bir vətəndaş kimi həm qürurluyam, həm də sonsuz dərəcədə minnətdaram".

**Şəhər sakini Rəşad Ağayev:** "Bu gün yaşadığımız sevincin həddi-hüdudu yoxdur. İllərlə içimizdə yığılıb qalmış həsrət, nisgil artıq yerini ümidə, qürura və xoşbəxtliyə verib. Torpaqlarımızın işğaldan azad edilməsi təkcə bir qələbə deyil, həm də tariximizin ən şərəfli səhifələrindən biridir. Bu böyük zəfərə görə ilk növbədə Ali Baş Komandanımız, Prezidentimizə minnətdarlığımız sonsuzdur. Allah onun canını sağ eləsin. Onun güclü iradəsi, qətiyyəti və xalqımıza olan sevgisi sayəsində illərlə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Bu gün o torpaqlarda artıq Azərbaycan bayrağı dalğalanır və xalqımız yenidən öz dədə-baba yurduna dönür. Artıq insanlar tədricən doğma yurd-yuvalarına qayıdırlar. Hər bir köç xəbəri insanın qəlbini riqqətə gətirir. Əvvəllər yalnız xəyalımızda canlandırdığımız o torpaqlar bu gün real həyata çevrilib. Düzdür, mən hələ Qarabağa getməmişəm, amma orada aparılan tikinti-quruculuq işlərini televiziya və internet vasitəsilə izləyirəm. Görünən odur ki, evlər inşa olunur, yeni yollar çəkilir, infrastruktur bərpa edilir. Bütün bu işlər çox sürətlə və planlı şəkildə həyata keçirilir. Dövlətimiz orada həyatın yenidən canlanması üçün əzmlə çalışır. Qarabağda qurulan hər yeni ev, hər açılan məktəb və ya xəstəxana gələcəyimizin təminatıdır. İnşallah, yaxın gələcəkdə mən də doğma torpaqlarıma gedəcək, o yerləri öz gözlərimlə görəcəyəm. Bu arzunun reallığa çevrilməsi uzaqda deyil. Əsas odur ki, artıq Qarabağ azaddır, vətənə qovuşub və dirçəlməkdədir".





**Şəhər sakini Ehtiram Zeynalov:** "Bu, reallıqdır, acılı, amma qürurverici bir reallıq. 30 ildən artıq bir müddətdə insanlar doğma yurdlarına həsrət qaldılar. Lakin bu gün artıq həmin insanlar tədricən öz evlərinə, öz torpaqlarına qayıdırlar. Bu, sadəcə siyasi və ya hərbi qələbə deyil, bu, xalqımızın iradəsinin, dözümünün və inamının nəticəsidir. Bəli, bu yolda beynəlxalq siyasətin, o cümlədən Avropa İttifaqının iqtisadi qərarlarının da rolu olub. Ancaq əsas güc xalqın özündədir. Çünki dünyada hər zaman humanitar böhranlar baş verir, amma xalq birlik göstərəndə haqq mütləq yerini tapır. Mən özüm də Qarabağlıyam. Bu, mənim üçün çox dərin və şəxsi bir məsələdir. Bunu deyərkən sadəcə qürur duymuram, eyni zamanda ağrı da hiss edirəm. Onlarla, yüzlərlə yaşlı insan vardı ki, illərlə doğma Qarabağını görmək istəyirdi, amma bu arzuyla dünyasını dəyişdi. Onlar son nəfəsinədək torpaq həsrəti ilə yaşadılar. Bəziləri, hətta yaşamaq ümidi olmadan torpaqlarını satmaq məcburiyyətində qaldı. Amma biz bu gün onların ruhuna borcluyuq, o torpaqlara sahib çıxaraq, Qarabağı yenidən canlandıraraq. Bu səbəbdən səslənirəm: Azərbaycan, hər zaman cəsur ol, hər zaman qalib ol! Xalqımla fəxr edirəm. Onların səbrinə, dönməzliyinə, Vətən sevgisinə baş əyirəm".



**Şəhər sakini Yusif Yusifov:** "Böyük Qayıdış" proqramı şübhəsiz ki, xalqımızın rifahı, gələcəyi və milli birliyimiz üçün həyata keçirilən ən mühüm dövlət proqramlarından biridir. Bu proqramın əsas məqsədi uzun illər işğal altında qalmış doğma torpaqlarımıza həyatın yenidən qaytarılması, insanlarımızın təhlükəsiz və layiqli şəkildə öz yurd-yuvalarına qayıtmasıdır. Xalqın xeyrinə olan hər bir təşəbbüsü, hər bir addımı alqışlamaq bizim vətəndaşlıq borcumuzdur. Çünki bu proqram təkcə fiziki qayıdışı deyil, həm də mənəvi qayıdışı təmin edir. Yeni insan öz köklərinə, öz keçmişinə, doğma torpağına qovuşur. Hazırda Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri göz önündədir. Hər gün yeni yollar salınır, körpülər tikilir, müasir üslubda evlər inşa olunur. Sosial infrastruktur – məktəblər, xəstəxanalar, uşaq bağçaları və digər mühüm obyektlər ard-arda istifadəyə verilir. Bütün bunlar insanın qəlbini sevinc və qürur hissi ilə doldurur. Ən sevindirici məqamlardan biri də insanların mərhələli şəkildə doğma yurdlarına köçürülməsidir. Uzun illər həsrətində olduqları torpaqlara qovuşan vətəndaşlarımızın simasındakı sevinc, onların səsinə yansıyan həyəcan, bütün xalq üçün böyük bir ümid işığıdır. "Böyük Qayıdış" proqramı təkcə bir layihə deyil, bu, Azərbaycanın milli iradəsinin, dövlət siyasətinin və xalqın birliyinin təcəssümüdür. Biz bu tarixi dönüşü alqışlamalı, dəstəkləməli və onun davamlılığı üçün həmrəy olmalıyıq. Çünki bu yol gələcəyə aparan yoldur – sülhə, inkişafa və vətən sevgisinə söykənən bir yol".



**Şəhər sakini Simuzər Əliyeva:** "Bu gün doğma Qarabağ torpaqlarına insanların qayıtdığını gördükcə, onların yerinə ürəkdən sevinirəm. Uzun illərdir bu günü səbirsizliklə gözləyən insanlar üçün bu qayıdış sadəcə fiziki bir köç deyil, bu, həm də mənəvi rahatlıq, daxili dinclik və doğmalığa qovuşmaqdır. Xüsusilə, yaşlı nəsil üçün bu dönüş olduqca duyğuludur. Onlar illərlə həmin torpaqlara həsrət yaşadılar, gözlərində Qarabağla bağlı xatirələrini qoruyub saxladılar. Bu gün onların arzularının gerçəyə çevrildiyini görmək çox təsirlidir. Cavanlarımız isə artıq azad olunmuş torpaqlara gedir, gəzir, oraların təbiətini, tarixini, gözəlliyini öz gözləri ilə görürlər. Onlar başa düşürlər ki, nə qədər qiymətli və müqəddəs bir Vətənə sahibik. Bu, onların vətən sevgisini daha da gücləndirir, ruhlarını yüksəldir. Hazırda Qarabağda genişmiqyaslı quruculuq və abadlıq işləri aparılır. Yeni yollar çəkilir, evlər tikilir, məktəblər və digər sosial obyektlər inşa edilir. Hər daşda, hər divarda böyük zəhmət, xalqımıza olan sevgi və gələcəyə inam hiss olunur. Bütün bu işlər dövlətimizin gücünü və xalqımızın birliyini nümayiş etdirir. Bu səbəbdən Prezidentimizə, dövlət rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk. Onların qətiyyətli siyasəti və uzaqgörənliyi sayəsində bu gün Qarabağ dirçəlir, xalqımız öz doğma yurduna qayıdır. Unutmamalıyıq ki, bu torpaqlar uğrunda minlərlə igid şəhid canını fəda edib. Onların müqəddəs ruhlarına Allahdan rəhmət diləyirik. Qazilərimizə can sağlığı arzulayırıq, onların fədakarlığı, döyüş meydanında göstərdikləri qəhrəmanlıq heç vaxt unudulmayacaq. Dualarımız ordumuzladır. Allah ordumuzu gücləndirsin, hər bir əsgərimizi qorusun və Azərbaycanı daim sülh, əminamanlıq içində yaşatsın. Qarabağ artıq azaddır, indi isə onu daha gözəl, daha abad və daha yaşanılası etmək bizim ortaq vəzifəmizdir".



**Şəhər sakini Rəbiyə Şəmilova:** "Torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağa qayıdış xəbərləri mənim üçün sözlə ifadə olunmaz dərəcədə böyük sevinc və qürur hissi yaradır. Hər dəfə bu barədə bir xəbər eşidəndə, köç edən ailələrin görüntülərini görəndə gözlərim yaşarır, qəlbim kövrəlir. Uzun illər həsrətində olduğumuz torpaqlarımıza bu gün insanlarımızın qayıtdığını görmək əsl xoşbəxtlikdir. Allah Prezidentimizə can sağlığı versin. Onun güclü iradəsi, xalqımıza olan sevgisi və qətiyyətli siyasəti sayəsində bu gün biz doğma Qarabağımıza yenidən qovuşuruq. Bu, sadəcə torpaq uğrunda aparılan müharibənin deyil, həm də mənəviyyatın, ədalətin və tarixin qələbəsidir. İnsanların Qarabağa köç etməsi məni o qədər sevindirir ki, bəzən gecələr sevincimdən yata bilmirəm. Gözümün önündə sanki uşaqların gülüşü, anaların dua dolu baxışları, kişilərin əllərində bel və kürəklə torpağa qovuşması canlanır. Bu hisslər insana həyat verir, ruh verir, gələcəyə ümid verir. Qarabağda aparılan quruculuq və bərpa işləri də son dərəcə möhtəşəmdir. Hər gün yeni tikililər, müasir yollar, məktəblər, xəstəxanalar, sosial obyektlər inşa olunur. Bu əzəmətli proses göstərir ki, Qarabağ təkcə azad edilməyib, eyni zamanda yenidən doğulur. Doğrudur, hələ ki, Qarabağa getməmişəm. Amma qəlbim hər an oradadır. Mən əminəm ki, yaxın vaxtlarda ora gedəcəyəm, doğma torpağımın torpağına ayaq basacağam, havasını ciyərlərimə çəkəcəyəm. Bu arzunun reallaşacağı gün üçün yaşayır, dua edir və səbirsizliklə gözləyirəm".

***Söylü Ağazadə***

# Çoxkonfessiyalı, çoxmillətli dövlət

AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 24 il ötür



Azərbaycanda tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müxtəlif tərəflərin bir araya gəlməsi istiqamətində həyata keçirilən tədbirlər, görülən işlər ölkəmizin dini tolerantlığın ünvanına çevrilməsində mühüm rol oynayır. Son illərdə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlara ev sahibliyi edən paytaxt Bakımız beynəlxalq aləmdə mədəniyyətlərarası dialoqa öz töhfəsini verib və bu proses davam etməkdədir. Azərbaycanda din sahəsində aparılan dövlət siyasətinin, ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa dəstək verməsinin beynəlxalq aləmdə təbliğ edilməsi, ölkəmizin tolerantlıq təcrübəsinin yayılması baxımından Dünya Dini Liderlərinin Bakı Sammiti, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, "Dövlət və din: qloballaşan dünyada tolerantlığın gücləndirilməsi" Beynəlxalq Bakı Forumu və digər beynəlxalq tədbirlər əhəmiyyəti baxımından təqdirəlayiqdir. Tolerantlıq əlbəttə ki, hüquqi dövlətin yox, mədəni və mənəvi cəhətdən inkişaf etmiş cəmiyyətin məhsulu kimi səciyyələndirilir. Bütün bunlarla yanaşı, bu və digər tədbirlərin təşkili Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqinə, müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verilən töhfələrin davamıdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir".

### TOLERANTLIQ MÜHİTİ DÖVLƏT-DİN KONSEPSİYASINA UYĞUN DAHA DA MÖHKƏMLƏNİB

Ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına töhfələrini verən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından artıq 24 il ötür.

Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixində yaradılıb. Müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Dövlət Komitəsinin yaranması barədə fərmanla Komitənin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoyuldu. Beynəlxalq aləmdə, xüsusilə regionda və ölkədə gedən proseslər, eləcə də dini durumda baş verən hadisələr Ümummilli Liderin bu qərarının nə qədər müdrik addım olduğunu bir daha təsdiqlədi.

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb.

Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur. Dini maarifləndirmə işini Komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də televiziya proqramları vasitəsilə də aparan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında dini radikalizmin, xurafatın törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha aydın şəkildə çatdırmaq, həmçinin, bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır" və digər sənədli filmlər çəkilərək geniş ictimaiyyətə təqdim edilib. Komitənin aidiyyəti qurumlarla birgə təşkilatçılığı ilə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "İslam həmrəyliyi: dini və mənəvi müxtəlifliyin harmoniyası", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" və s. mövzularında beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirib.

Müasir dünyamızda Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Şəmkir və Göygöl rayonlarında kompakt halda yaşamış almanlüteranlar II Dünya müharibəsi zamanı Sovet hakimiyyəti tərəfindən deportasiya edilmişdilər.

Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir. İbadət evləri ilə yanaşı, respublikada xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən pravoslav kilsələri yanında bazar günü məktəbləri, protestant icmalarının Bibliya kursları, yəhudilərin ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları və s. fəaliyyət göstərir.

Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Təsadüfi deyil ki, xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Azərbaycanda yaşayan yəhudilər hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq dualar edirlər.

### QARDAŞLIĞIMIZIN VƏ TOLERANTLIĞIMIZIN SİMVOLU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi.

Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda həmrəylik nümayiş edərək vuruşdular. Azərbaycanda yaşayan və savaşda yanımızda olan müxtəlif xalqların nümayəndələri də şəhidlik zirvəsinə ucaldılar. Bu qardaşlığımızın və tolerantlığımızın simvolunun daha bir nümunəsidir. Müasir dövrümüzdə ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzidir.

**Zümrüd BAYRAMOVA**

# Ömrümüzə gələn YAY...

***Budur, baharı yola salıb, ömrümüzə gələn növbəti yayı qarşılayırıq. Cırhacır istisi ilə insanları heç də usandırmayan, əksinə, özünü bütün fəsillərdən daha çox sevdirən yay gəlir ömrümüzə... Yaşıl rəngin bütün tonlarıyla qarşımızda gözəllər gözəli bir yay fəsli açılır. Bol günəşi, rəngbərəng gülü-çiçəyi, çeşid-çeşid meyvə-tərəvəzi ilə nə qədər gözəl, nə qədər maraqlı, nə qədər füsunkardır yay...***

## Baharla payızın arasında körpüdür yay...

Baharla payızın arasında körpü olan, öz hərarəti ilə bu iki sərin fəsli bir-birinə həmdəm edən mövsümdür, yay. Yazda ağacların çiçəyinə vurulub, bu sevginin meyvələrini çiyinlərində daşıyıb payıza təhvil verən sevdalıdır, yay. Yazda torpağa əkilənlərə su ilə birlikdə can verib süfrələri bollaşdıran, əkinçinin arzusunun gerçəyi, zəhmətinin bəhrəsidir, yay. Toplanması payıza təsadüf edən meyvələrin, tərəvəzlərin yığımını gözləyən, götürəcəyi məhsulu realizə etməklə övladına nişan, toy etmək, cehiz almaq, him açıb bina salmaq, qarşıdan gələn qışa hazırlıq görmək istəyənlərin arzusudur, yay.

Yay həm də hicranların vüsal vaxtı, şəhərlərimizdən rayonlara, kəndlərə üz tutanların ata-ana, qohum-əqrəba həsrətinin sonudur. Baba-nənələrindən uzaqda yaşayan



uşaqların onların sevgisini duyduğu, tumarını gördüyü, nağılını dinlədiyi andır yay. Evlərimizin qonaq-qarası, həyətlərimizin səsi-küyü, şaqraq gülüşüdür, yay. Ağacların yazda barmaq boyda yarpaqlarını isti ağuşunda böyüdüb yolçuya, əkinçi-biçinçiyə çətir edəndir, yay. Yaşıl rəngi, çiçək ətri, rəngarəng mənzərələri ilə yolçunu yoldan edib, bu çətirlərin altında samovar çayına, quzu kababına qonaq edəndir, yay. Bir təbiət gözəlidir bu fəsil. Bəzən istisindən zinhara gəlib gileyləndiyimiz yay olmasa, baharda torpaqdan ancaq boylanan yaşıl çəmən heç dizə qalxarmı? Mövsümboyu üç-dörd dəfə biçilən bu çəmənlərin, düzlərin otu ilə qışboyu bazarlarımızı bol südlü, qatıqlı, pendirli, şorlu, kərəli edən mal-qaranın ruzisidir, yay.

## Çobanların tütəkdə səsləndirdiyi nəğmədir, yay...

Yaylaqların sükutunu pozan qoyun-quzu mələşməsi, çobanların tütəkdə səsləndirdiyi nəğmədir, yay. Eldən-elə qonaq gəlib Ulu Yaradanın təbiət bəxşişini paylaşanların qurduqları obadır, yay. Ocaq çayı, ocaq yeməyi, təbiətin qoynunda açılan süfrədir, yay. Dağların sinəsini, torpağın bağrını yarıb çağlayan, 38-40 dərəcə isti havada bir dəqiqənin tamamınadək əlimizi saxlaya bilmədiyimiz buz bulaqlarımızdır, yay. Dağlarımızın-dərələrimizin insanlara ruzi payı olan min adda, min bir dadda bitkilərinin onlara ərmağan çağıdır, yay. Bu mövsüm gözəl, təbiət möcüzəsi olan diyarımızın gəzməli-görməli yerlərinin "qapısının açarıdır". Uşaqların məktəb tətili, valideynlərinin məzuniyyət dövrü, onları birlikdə bu gözəllikləri duymağa səsləyən,



istirahətə çağırışdır, yay. Açın onunla "təbiətin qapılarını"...

## Bakı qonaqlarını gözləyir

İlin bütün fəsillərini işləyən, yay tətilində, məzuniyyət dövründə Bakıya-bu gözəllər gözəli şəhərin turistik məkanlarını gəzməyə, görməyə gələnlərin sayı-hesabı olmur. Necə ki, şəhərdə yaşayanları yay fəslində kəndlərimizin sərin havası, saf suları, nənə-baba nəfəsi o yerlərə çəkib aparır, kəndlərimizdə yaşayan insanlar da paytaxt şəhərə gəlib gəzmək, əylənmək istəyir. Uzun illərdir ki, Azərbaycan memarlığının nadir incisi olan, Bakının mərkəzində 22 hektarlıq ərazidə yerləşən İçərişəhər, buradakı yüzlərlə tarixi abidə turistlərin ən çox ziyarət etdiyi, xoş təəssüratlarla ayrıldıqları məkandır.

Bu şəhərə gələsən, Xəzər dənizinin kənarında nəhəng bir qayanın üzərində silindirik formada tikilmiş, Bakının rəmzinə çevrilmiş Qız Qalasını görməyəsən, bu, mümkün deyil. Elə bu səbəbdən də bu tarixi abidənin qonaqsız günü olmur, xüsusilə də yay fəslində. XII əsrin yadigarları olan Şirvanşahlar Saray Kompleksi, Qala divarları, XV-XVI əsrlərin ərmağanı olan Kiçik Karvansaray qədim tariximizin bir parçası olaraq qonaqlara yaranma səbəbindən söhbət açır. Elə buna görə də qonaqlar bu sənət nümunələrinin necə ərsəyə gəldiyini mərhələ-mərhələ yaxından izləməkdən böyük zövq alırlar.

XVII-XVIII əsrlərdə təbii qazın çıxdığı əbədi alovların yerində inşa edilən "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu-odlar yurdunun heç vaxt sönməyən bu əbədi məşəlində küləklə odun ecazkar rəqsinə tamaşa etməkdən böyük zövq ola bilərmi? Təbii qazın çıxdığı əbədi alovlar məkanı olan "Yanar dağ"ın füsnuna tamaşa etməkdən doymaq olarmı?

Dənizkənarı Milli Park, Fəvvarələr meydanı, son illərin möhtəşəm tikililərinin hər biri, çimərliklər, parklar, xiyabanlar bu şəhərin yay əyləncəsinin ən gözəl ünvanlarıdır. O ünvanlar ki, aylarla unudulmayacaq təəssürat bəxş edir insanlara. Odur ki, gəlin, əziz qonaqlar, bu yay günlərini Bakının gözəlliklərindən zövq almaqla, bu şəhəri doya-doya gəzməklə mənalı edin.

## Naxçıvan yay istirahətinin ən gözəl ünvanıdır

Naxçıvana-Şahbuza gedin, dağlarının başında qışı, sinəsində yazı, çəmənlərində yayı yaşayan Batabata qalxın. "Üzən ada" möcüzəsi, Zorbulağın həzin nəğməsidir, yay. Bu əsrarəngiz havanı doyunca sinənizə çəkin. Güllərdən çələng hörün, saçlarınıza taxın. Çünki bir çələngdir, yay. Sərin küləkləri ilə güllərin, çiçəklərin rayihəsini ciyərlərimizə dolduran sizə xoş anlar yaşadan andır, yay.

Dəniz səviyyəsindən 2000 metrdən yüksəkdə yerləşən Ağbulağa gedin. Bu yüksəklikdən ətrafdakı cənnətməkanın seyri, Ağbulaq İstirahət Mərkəzində istirahətin ən gözəl dövrüdür, yay. Ordubada üz tutun, xəfif küləyi ilə Pəzməri şəlaləsinin suyunu üzünüzə çiləyən şeh, dörd mövsümlü Göygöldür, yay. Bu doyumsuz gözəlliklərin fonunda gözlərinizin bəzəyi, ruhunuzun qidası, könlünüzün həmdəmidir, yay. Xan Arazın nəğməsini dinləyin. Yay bəzən sevdalanmış Arazın pıçıltısı, bəzənsə kükrəyib coşmasıdır.

Bəs Əlincə, Haçadağ? Bu dağların harmoniyası da yay sevdalısıdır. Çünki yay bu şiş, girintili-çıxıntılı dağların üzəri ilə sizləri tarixin qüruru Əlincəyə, təbiət ərmağanı Haçadağa rahatlıqla çatdıra və buradan gözəl mənzərələri qarşınızda aça bilir. Göz uzandıqca seyr edəcəyiniz, bir-birini əvəz edən gözəlliklər Turistləri bu diyara səsləyən, əsrarəngiz təbiət lövhələri, təbii məhsulları, zəngin mətbəxi ilə onları valeh edib, hər il istirahət üçün bu gözəl ünvanı – Naxçıvanı seçmələridir, yay. Günəşdən güc alıb dənizlərə, göllərə verdiyi hərarət ilə çimərlik dövrüdür, yay. Uzunoba çimərliyi ilə insanlara sərin və mənalı istirahət yaşadan, hərarəti sularında qərq edəndir, yay. İstirahət, əyləncə mərkəzləri kimi ünvanlarda isti, elə isti olduğuna görə də yorucu günlərinin yorğunluğunu unutdurmağı da bacarandır, yay

Naxçıvan xan Sarayı, Gəmiqaya rəsmləri, Möminə xatun Türbəsi, Yusif ibn Küseyir Türbəsi tarixin ayrı-ayrı məqamlarından söhbət açıb bir yay təəssüratının mövzusuna çevriləcək, sizə istirahətlə birlikdə tarixin dönəmlərindən bilgi verəcəkdir.

## Gəlin, Şəkiyə gedək!

Şəkiyə üz tutun. Bakıdan 305 km məsafədə yeləşən Şəki şəhəri təbiəti, tarixi memarlıq abidələri, eləcə də ləziz mətbəxi ilə qonaqlarda unudulmaz təəssüratlar yaradacaq. XVIII əsrin Şəki xan Sarayı, Şəki Karvansarayı tarixin bizə bəxş etdiyi, bizimsə yaşadıb nəsillərdən-nəsillərə ərmağan etdiyimiz memarlıq ansambllarıdır. Onları öyrənmək, kəşf etmək Şəkinin gözəllikləri fonunda gözəl, həm də unudulmaz bir yay yaşamaq deməkdir. Hələ Şəkinin Kiş kəndinin şimal-şərqində, Kiş çayının qollarından birinin sol sahilində, Qaratəpə dağının üzərində sıldırım yamaclara söykənən "Gələrsən-görərsən" qalasını demirəm. Demirəm ki, bu yay özünüz bu ünvana üz tutun, bu möcüzə ilə yerindəcə tanış olun...

## Xınalığa, Lahıca, Gəncəyə, Qəbələyə, Qusara, Naftalana üz tutaq...

Xınalıq kəndinə üz tutun. Quba şəhərindən 57 km cənub-qərbdə, paytaxtdan 225 km aralıda yerləşən, etnoqrafik bənzərsizliyi ilə seçilən bu kənd Qafqaz dağlarının uca zirvəsində amfiteatrı xatırladır. Bu gözəllikləri görmək hər kəsin haqqı və arzusudur. Cənnət Azərbaycanı qarış-qarış gəzib öyrənmək hər bir azərbaycanlının istəyidir. Belə isə Xınalığı görmək bir kitabı oxuyub başa çıxmaq kimi təsir bağışlayacaq bu yay günlərində sizə.

İsmayıllı rayonunun Lahıc qəsəbəsi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Böyük Qafqaz sıra dağlarının cənub yamacında dəniz səviyyəsindən 1505 metr hündürlükdə yerləşir. Lahıc Girdiman çayının sahilində Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunur. İki dağın əhatəsində olması Lahıca təbii qala şəraiti bəxş edir. Lahıca gedin, bu gözəllər gözəlini görün, gözünüzə işıq, könlünüzə sevinc dolsun.

Gəncə, Qəbələ, Qusar, Naftalan bu yay qonaqlarını qarşılamağa hazırdır. Bütün gözəllikləri, füsunkarlıqları, heyrətamizliyi, istirahətin sonsuz məmnuniyyəti ilə qapılarını hər kəsin üzünə açıb. Buyurun gəlin, qəlbinizi unudulmaz yay təəssüratları ilə doldurun. İl boyu bu təəssüratlarla baxın həyata. Bu baxışlarla nələrə qadir olmazsınız?..

## Bu yayı Şuşada keçirək...

Şuşaya turlar təşkil olunur. Bu turlarla gəlin, Şuşaya gedək. 30 il həsrət qaldığımız xarıbülbülün ətrini çiyərlərimizə çəkək. Şuşanı görək, azad hüsnünü hafizələrimizə köçürək. Erməni yağılarının bu dağlar gözəlinin hüsnünə qəddar əlləri ilə vurduğu yaraları göz yaddaşımıza köçürək. Övladlarımızı aparaq Şuşaya, görsünlər bütün bunları. Tariximizi yaşadaq. Ümumilikdə Qarabağa yay səfərlərimizə yaxın gələcəkdə başlayacağıq. Dövlətimiz bütün bunlar üçün Qarabağı abadlaşdırır, minalardan təzileyir.



Biz gələn illərdə yay günlərimizi Qarabağda keçirəcəyik. Bu o qədər unudulmaz bir yay olacaq ki?..

Azərbaycanın haqqında bu kiçik yazıda bəhs etmədiyimiz digər bölgələri var ki, hər biri nəinki yayın, görd fəslin gözəli, istirahət ünvanlarıdır. Bütün bunları oxucularımız da gözəl bilir. Bəlkə də hələ o ünvanları bu yay tətili üçün seçiblər də. Bəli, seçimlər də, arzular, istəklər də fərqlidir. Ta ki bu yayın isti günlərində istirahətlərimiz ürəyimizcə olsun.

Hə, isti demişkən, istisindən şikayətlənib, hər an bitməsini arzulayan bizlərin heç özümüzün də fərqində olmadığımız qədər sağlamlığımızdır, yay. Qızmar şüaları ilə ətrafdakı virusları məhv edən, immunitetimizi artıran, orqanizmimizi möhkəmləndirən, bizi qarşıdan gələn payızın, qışın sazağına-soyuğuna tablaşmağa hazırlayan "həkimdir", yay. İstidir, bəli, amma mənalıdır, özünəməxsusdur.

## Yay xatirələr toplusudur

Budur, ömrümüzə bir yay öz qədəmlərini qoydu... Xatirələrə rəssamı özü olan gözəl bir təbiət mənzərəsi həkk edən yay. Bu mənzərədə yaşılın bütün tonları bir-birini əvəz etdikcə, digər rənglərin harmoniyası yaşılın gözəlliyini, cazibədarlığını bir qədər də üzə çıxarır. Təkrarsız bir təbiət lövhəsidir bu mənzərə. Yayın var olduğunu, yaşandığını və nəhayət, ömrümüzdə bir ilin bir fəslini də səciyyələndirən lövhə. Bu mənzərə həm də xatirələr toplusudur. Hər kəsin bir yay təəssüratı olan toplu. Vərəqləndikcə ömrün bu yayının nə anları olacaq bu topluda...

***Mətanət Məmmədova***

# “Azərbaycan Məhəlləsi” xalqımızın Türkiyəyə olan dərin sevgisinin simvoludur



***“Azərbaycan Prezidenti cənab İlham Əliyevin qardaş Türkiyəyə etdiyi səfər və bu səfər çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Kahramanmaraşda Azərbaycan sərmayəsi hesabına inşa olunmuş “Azərbaycan Məhəlləsi”nin açılışında iştirakı, iki ölkə arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərinin nə qədər yüksək səviyyədə olduğunun bariz nümunəsidir.***

Beləliklə, Kahramanmaraşda ucaldılan bu məhəllə həm maddi, həm də mənəvi baxımdan iki dövlətin, iki xalqın birliyinin, dərdbəla zamanı bir-birinə arxa durmasının canlı bir simvoludur. Bu, eyni zamanda Azərbaycan-Türkiyə münasibətlərinin gələcəkdə daha da möhkəmlənəcəyinə olan inamın göstəricisidir. Kahramanmaraşda salınmış “Azərbaycan Məhəlləsi” təkcə maddi bir tikili deyil, bu, həm də kahramanmaraşlıların, ümumilikdə, Türkiyə Cümhuriyyəti vətəndaşlarının ürəyində əbədi olaraq yaşayacaq mənəvi bir abidədir. O, yaddaşlara həkk olunan, illər keçsə belə unudulmayacaq bir qardaşlıq simvoludur. Bu abidə Azərbaycan xalqının qardaş Türk xalqına həmrəyliyinin, sevgisinin və ehtiramının canlı sübutudur. Məhz buna görə də, Türkiyə və Azərbaycanın qarşılıqlı münasibətləri istər dostluq, istərsə də strateji müttəfiqlik baxımından bütün dünyanın diqqətini çəkir. Bu iki ölkə arasında əlaqələrin bu örnək olacaq bir dostluq və qardaşlıq modelidir. Bu model nə qədər hücumlara məruz qalsa da, dayanaqlı, dərin köklərə sahib olduğu üçün daima qalacaq və daha da möhkəmlənəcəkdir”. Onun sözlərinə görə, Türkiyə və Azərbaycan arasında mövcud olan münasibətlər sadəcə müasir dövrün məhsulu deyil: ”Bu əlaqələr sağlam siyasi, mənəvi və tarixi əsaslar üzərində qurulmuş, zaman-zaman sınaqlardan keçmiş və hər dəfə daha da möhkəmlənmiş münasibətlər sistemidir. “Bir millət, iki dövlət” prinsipi bu münasibətlərin təməlində dayanır və bu, təkcə bir ifadə deyil, eyni zamanda hər iki xalqın qəlbində yaşayan bir inanc, bir ruh halıdır. Bu səbəbdəndir ki, bəzi qüvvələrin Türkiyə-Azərbaycan münasibətlərini pozmaq, bu iki qardaş xalq arasında narazılıq toxumu səpmək cəhdləri heç vaxt nəticə verməyəcək. Onlar nə qədər çalışsalar da, əsla və əsla bu münasibətləri zədələyə, bu birliyi sarsıda bilməyəcəklər. Çünki bu münasibətlər sadəcə dövlətlərin deyil, xalqların könlündə



Bu hadisə bir daha sübut edir ki, Azərbaycan və Türkiyə münasibətləri təkcə diplomatik və siyasi tərəfdaşlıqdan ibarət deyil, həm də qan qardaşlığı, tarixə, mədəniyyətə və mənəviyyata söykənən sarsılmaz bir bağdır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib. O bildirib ki, Kahramanmaraşda yaradılan bu “Azərbaycan Məhəlləsi” sıradan bir yaşayış kompleksi deyil, bu, Azərbaycan xalqının Türkiyəyə olan dərin sevgisinin, humanitar həmrəyliyinin və möhkəm qardaşlığının simvoludur: ”Burada inşa olunan evlər, salınan parklar, açılan məktəblər və digər infrastruktur obyektləri yalnız maddi baxımdan dəyərli deyil. Bu, məkan, həm də mənəvi baxımdan böyük bir abidədir. Çünki bu təşəbbüs sadəcə binaların tikilməsi ilə yekunlaşmır, burada bir millətin digər millətə göstərdiyi qayğı, onun ağrısını öz ağrısı kimi qəbul etməsi, fəlakət zamanı tək qoymaması təcəssüm olunur. ”Azərbaycan Məhəlləsi” sanki hər daşında “bir millət, iki dövlət” fəlsəfəsinin ruhunu yaşadır. Bu, eyni zamanda gələcək nəsillər üçün də bir mesajdır: bu dostluq və qardaşlıq əbədi olacaq, bu təməl sarsılmaz qalacaq.

qədər səmimi, güclü və davamlı olması təbii ki, bəzi dairələri narahat edir. Bu dairələr daim Azərbaycan və Türkiyə arasında narazılıq toxumu səpməyə çalışır, münasibətləri kölgələmək üçün süni gərginliklər yaratmağa cəhd edirlər. Onlar məqsədyönlü şəkildə şayiələr yayır, ictimai rəyə təsir göstərmək üçün manipulyasiyalara əl atırlar. Amma bu cəhdlərin heç biri nəticə vermir. Çünki Türkiyə və Azərbaycan arasındakı bağ yalnız siyasi maraqlara deyil, tarixə, birliyə, ortaq dəyərlərə, dilə, mədəniyyətə və ən əsası könül birliyinə əsaslanır. Bu qardaşlıq sadəcə diplomatik platformalarda deyil, xalqın qəlbində yaşayan, sarsılmaz və sınmaz bir birlikdir.

Eyni zamanda, iki ölkə beynəlxalq münasibətlər sistemində də ortaq maraqlar ətrafında birləşərək sinxron şəkildə hərəkət edir, qlobal məsələlərdə bir-birini dəstəkləyir və strateji əməkdaşlıqlar qurur. Bu həm regional sabitlik, həm də qlobal ədalət naminə atılan önəmli addımlardır. Bütün bu reallıqlar bir daha sübut edir ki, Türkiyə-Azərbaycan münasibətləri zamanın sınağından keçmiş, bütün çətinliklərə rəğmən daha da möhkəmlənmiş və gələcək nəsillərə bərqərar olmuş bir qardaşlıqdır.

Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Kahramanmaraşda Azərbaycan sərmayəsi ilə salınmış “Azərbaycan Məhəlləsi”nin açılışından əvvəl sosial şəbəkədə etdiyi paylaşım bu qardaşlığın mənəvi gücünü bir daha ifadə etdi. Onun paylaşımında yer alan son cümlə, son metafora xüsusilə diqqətəlayiqdi. Prezident Ərdoğan böyük Azərbaycan şairi Səməd Vurğunun məşhur “Azərbaycan” şeirinə istinad edərək qeyd etmişdi: “Ayrılarmı könül candan, Türkiyə-Azərbaycan?” Bu ifadə yalnız poetik bir cümlə deyil, bu, iki xalqın bir-birinə olan sonsuz sevgisinin, birliyinin və bölünməzliyinin təsdiqidir. Bu metafora ilə cənab Ərdoğan həm tarixi yaddaşa söykəndi, həm də bu münasibətlərin ruhunu ən incə şəkildə ifadə etdi. Bu cür çağırışlar, jestlər və mənəvi dayaq Azərbaycan və Türkiyənin münasibətlərini yalnız gücləndirir, möhkəmləndirir və gələcək nəsillərə örnək olacaq dostluq modeli yaradır. Bu, Türkiyə və Azərbaycanın dünənki, bugünkü gerçəkliyi, sabahkı gələcəyidir”.

***Söylü Ağazadə***

# Aleksey Naumov: Ermənistan Azərbaycanla sülhə gələ bilər, amma ondan əvvəl çox qan içiləcək

Beynəlxalq jurnalist, Rusiya Beynəlxalq Əlaqələr Şurasının üzvü Aleksey Naumov “Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın yeni parlament seçkilərində qalib gəlmək perspektivlərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Aleksey, hazırda Qərbdə Nikol Paşinyana dəstəyin səviyyəsini necə xarakterizə edərdiniz? Son aylar İrəvan özü açıq şəkildə həm Qərb, həm də Rusiya ilə münasibətlərin bərabər inkişafı mövqeyindən çıxış etməyə başlayıb, baxmayaraq ki, əvvəllər daha çox qərbyönlü ritorika səslənirdi.**



- Təbii ki, Paşinyan və Ermənistan Qərbin xarici siyasətində, xüsusən də Donald Trampın dövründə ABŞ üçün prioritet olmayan regionlara, ilk növbədə Amerika qitəsindən kənarda xüsusi müdaxilə etməmək kursu götürən Amerika Birləşmiş Ştatlarının xarici siyasətində əhəmiyyətsizliyə düçar olublar. Bu baxımdan demək olar ki, Nikol Paşinyan məhz ABŞ-ı Cənubi Qafqaza cəlb etmək üçün müəyyən Qərb layihəsi baxımından əhəmiyyətini itirib.

Eyni zamanda, Fransa bu silsilədən seçilir və Ermənistanı fəal dəstəkləyən, onu öz maraqlarının zonası hesab edən və müvafiq olaraq, regiondakı vəziyyətə təsir göstərməyə çalışan, Ermənistanla Azərbaycan sərhədində vəziyyətə nəzarət edən, bütövlükdə Zaqafqaziyada vəziyyətə nəzarət edən ölkə olaraq qalır. Prinsipcə, Parisin imperiya təsirini itirməsi ilə bağlı reallaşmamış ambisiyalarının olduğu göz qabağındadır. Beləliklə, ABŞ Ermənistandan getdikcə daha çox uzaqlaşdığı halda, Avropa İttifaqı əksinə, indi bu boşluğu, bu boşluğu doldurmağa və regionda hansısa mühüm rol oynamağa çalışır. Və xüsusən də Fransa xarici siyasətinin forpostlarından biri kimi Ermənistanı seçir.

Eyni zamanda qeyd etmək lazımdır ki, Ermənistan dövləti bu gün böhran içindədir və ondan necə çıxacağı o qədər də aydın deyil. Hansı şüarlar altında, kiminlə yaxınlaşmaq, hara getmək. Rusiyadan qopma o qədər də uğurlu olmadı və o qədər də uğurla getmir. Qərblə yaxınlaşma da çox effektsiz, çox nəticə vermədən həyata keçirilir. Və buna görə də ümumilikdə Ermənistanın siyasi gələcəyi o qədər də aydın deyil.

**- Gələn il Ermənistanda parlament seçkiləri keçiriləcək. Sizcə, Paşinyanın qələbəsi üçün hansı perspektivlər var və bu, nədən asılı olacaq?**

- Paşinyanın qələbə perspektivinə gəlincə, mən hesab edirəm ki, o, prinsipcə hazırda Ermənistanın siyasi məkanına kifayət qədər ciddi nəzarət edir. Onun bütün ermənilərin katolikosu II Qareginə qarşı necə kampaniyaya başladığını görürük. Açığı, o, hiss edir ki, hazırda onun siyasi hərəkatına arxalanaraq ölkənin siyasi sisteminə tam nəzarət etmək, müəyyən mənada təkbaşına idarə etmək imkanı var. Məlumdur ki, katolikos Nikol Paşinyan Ermənistanda hakimiyyətə gələndən bəri hakimiyyətdə olanların, necə deyərlər, köhnə qvardiyaya mənsub olanların nümayəndəsi olub. Və Azərbaycanın Ermənistana qarşı ərazi iddialarını fəal şəkildə dəstəkləyir. Bu, ölkənin həyatına böyük təsiri olan təşkilatın rəhbərliyini təmizləmək cəhdidir. Paşinyan tərəfdarı olmayan şəxsi kənarlaşdırmaqla Ermənistan siyasi məkanı üzərində nəzarətini daha da möhkəmləndirmək imkanı əldə edəcək. İndiyə qədər Nikol Paşinyanın onu vəzifədən uzaqlaşdırmaq imkanı yox idi, amma indi görünür, üzə çıxır.

Bundan başqa, Nikol Paşinyan Ermənistanın Azərbaycana qarşı potensial revanşizmlə normal həyatı davam etdirmək şansının olmadığını anlayan şəxs olaraq qalır. Və aydındır ki, o, Ermənistan Respublikasında revanşizmin hələ də sakitləşmədiyi vəziyyətdən mümkün qədər çox fayda götürməyə çalışacaq, lakin buna baxmayaraq, son nəticədə ölkəni Azərbaycanla yekun sülhə aparmağa çalışacaq.

O, bir tərəfdən revanşist müxalifətin təzyiqinə məruz qalır, digər tərəfdən isə xarici qüvvələrin təzyiqi altındadır və bu şəraitdə o, həm ölkədəki hakimiyyətini qoruyub saxlamağa, həm də ölkəni xilas etməyə çalışır və bu, yalnız ərazi reallıqlarının tanınması və revanşist əhval-ruhiyyənin olmaması şərtilə mümkündür. Deməli, indiki baş nazir çətin vəziyyətdədir, amma çox güman ki, əvvəllər olduğu kimi bunun öhdəsindən gələcək. Aydındır ki, Paşinyanın dövründə Ermənistanla Azərbaycan arasında sülh mümkündür, lakin bu sülh əldə olunmazdan əvvəl Ermənistan hökumətinin başçısı hələ çox “qan içməli” olacaq.

Ümumiyyətlə, Nikol Paşinyanın hakimiyyəti saxlamaq şansı kifayət qədər yüksəkdir. Hətta daha çox - o, bu hakimiyyət mövqeyində uzunmüddətli konsolidasiya sisteminə keçə bilər. O da göz qabağındadır ki, Paşinyanın hakimiyyətdə olduğu illərdə müxalifət möhkəmlənə bilməyib, parçalanıb və erməni xalqı ilə dil tapa bilmir.

***Tərcümə - Elçin Bayramlı***

***Azərbaycan aparılan düzgün və əsaslı siyasət nəticəsində yeni və möhtəşəm uğurlara imza atmaqdadır. Bu uğurların nəticəsi olaraq əhalinin məşğulluğunun təmin olunması ilə yanaşı, sosial - iqtisadi vəziyyəti daha da yaxşılaşır. Uğurların pik nöqtəsinin 30 il işğal altında olmuş torpaqlarımızın azad edilməsi dövlətimizin gücünə yeni güc qatıb və dünya miqyasında böyük hörmət və nüfuz qazandırıb. Hüquqi, demokratik dövlət quruculuğuna xüsusi önəm verən Azərbaycan bununla dünyanın azad, demokratik dövləti olduğunu nümayiş etdirir. Təbii ki, uğurlarımız hələ qabaqdadır. Hələ böyük zəfərlər, möhtəşəm uğurlara imza atılacaq. Bütün bu uğurlara görə Prezident İlham Əliyevə minnətdarlıq borcumuz var.***

# Azərbaycan uğurları ilə yeni tarix yazır



Məhz Onun 44 günlük Vətən Müharibəsi dövründəki titanik fəaliyyəti, müdrik Liderlik bacarığı sayəsində 30 illik erməni işğalına son qoyuldu, torpaqlarımız azadlığına qovuşdu. Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində demişdir: “Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, “Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!”. Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı”. Azərbaycan Prezidenti İlham Əliyev 21 il öncə prezident seçkilərində verdiyi bütün vədləri artıqlaması ilə yerinə yetirib. Bununla da həm də tarixə vədinə və imzasına əməl edən Lider kimi düşüb. Ulu Öndər Heydər Əliyev 01.10.2003-cü il tarixli xalqa müraciətində deyilirdi: “Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Beləliklə, qədirbilən Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunması üçün Onun ən layiqli siyasi varisi Cənab İlham Əliyevə verdi. 20 il ərzində Azərbaycan iqtisadiyyatı davamlı və dinamik inkişaf edib, böyük tərəqqiyə, nailiyyətlərə imza atılıb. Ötən 20 il ərzində reallaşdırılan irimiqyaslı beynəlxalq və regional layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin “Əsrin müqaviləsi” 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı–Tbilisi–Qars dəmiryolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. Prezident İlham Əliyev 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində Azərbaycanın üçrəngli bayrağını ucaltdığı zaman əldə olunan uğurlardan bəhs edərkən demişdir: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi”.

### Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb

Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyətdə olduğu son 21 ildə ölkənin sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlərinə nəzər yetirdikdə göz önündə nəhəng, faydalı işlər canlanır. Son 21 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-nin real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdu. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb.Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib. İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb. Strateji valyuta ehtiyatları 1,4 milyard ABŞ dollarından 66,1 milyard ABŞ dollarına yüksəlib. Ötən müddət ərzində məhsul buraxılışının nominal həcmi 13,5 dəfə böyüyüb, əhalinin gəlirləri 10,5 dəfə artı. Ötən müddət ərzində 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb. Fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-a çatıb. Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 20 milyard manatdan artıq vəsait ayrılıb.Sahibkarlıq subyektlərin sayı 180 mindən 1,5 milyona qədər artıb. Ötən müddət ərzində 23 mindən artıq kiçik müəssisə və obyekt özəl mülkiyyətə keçib. Dövlət əmlakının özəlləşdirilməsi nəticəsində 300 mindən artıq iş yeri açılıb, 220 mindən çox şəxs səhm sahibi olub.

Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurları beynəlxalq maliyyə institutları da yaydıqları hesabatlarda qeyd edirlər. Dünya Bankının “Doing Business” 2019-cu ilin hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub və 190 dövlət arasında 25-ci yeri tutub. “Doing Business 2020” hesabatında isə Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib. Davos Dünya İqtisadi Forumunun 2020-ci ilin hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir. Azərbaycanın neft sektoruna investisiya yatıran xarici ölkələr siyahısının ilk beşliyində Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya kimi ölkələr qərarlaşıb. Son 20 ildə iqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 82,8% təşkil edib. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələrin ilk beşliyində isə Türkiyə, Böyük Britaniya, ABŞ, Niderland və Rusiyanı qeyd etmək olar. İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 9000-dən çox şirkəti qeydiyyatdan keçib. Xarici şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində də fəal iştirak edirlər.

### Azərbaycan inkişafın yeni modelini yaratdı

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldı. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdı; Prezidentlik fəaliyyətinin ilk dövründə İlham Əliyev “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2003-cü il tarixli Fərman imzalamışdır. Regionların inkişafına dair uğurla icra edilən Dövlət Proqramları Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Yeni bölgüyə əsasən isə iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb. Bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir. Bunun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılıb

Qazanılan qələbələrin, əldə edilən uğurların bəhrəsini nəinki Azərbaycan xalqı, ümumilikdə dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız da görməkdədir. Onlar Azərbaycanın uğurlarından bəhrələnməklə yaşadıqları ölkələrdə qürurlu xalqın nümayəndəsi olduqlarını nümayiş etdirirlər. Ona görə də qürurla demək olar ki, Azərbaycan dünyanın ən sayılıb, seçilən və hörmət edilən dövlətidir. Bu və digər uğurlara, xüsusilə də, 30 il erməni işğalı altında qalmış torpaqlarımızı azad edib, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə, 80 milyonluq dünya azərbaycanlılarının lideri, Prezidentimiz İlham Əliyev bəşər tarixinə adını əbədi Qalib Sərkərdə olaraq yazdırdı. Ulu Öndərimizin əsası qoyulan siyasət və Prezident İlham Əliyev tərəfindən davam etdirilən strategiya dövlətimizə və xalqımıza yalnız və yalnız uğurlar və qələbələr vəd edir.

***İLHAM ƏLİYEV***

# "Xaricə təhsil almağa gedən gənclərin sayında ciddi artım var"

***"Gənclər Azərbaycan əhalisinin təqribən 21-22 faizini təşkil edir. Bu, o deməkdir ki, son 10 ildə gənclərin sayında da azalma müşahidə olunur". Bu sözləri sosioloq Üzeyir Şəfiyev SİA-ya açıqlamasında deyib. O bildirib ki, əvvəlki illərdə gənclər ölkə əhalisinin təqribən 29-30 faizini təşkil edirdi: "Yəni, gənclərin sayındakı azalma həm təbii artımın ləngiməsi ilə izah olunur, həm də təhsil məqsədilə xarici ölkələrə gedən gənclərin sayının artması ilə əlaqələndirilir.***



Əlbəttə, gənclərin xaricə getmə səbəbləri əsasən daha keyfiyyətli təhsil almaq, beynəlxalq təhsil standartlarına cavab verən ölkələrdə oxumaq və gələcəkdə rəqabətədavamlı kadr olmaq arzusu ilə bağlıdır. Digər tərəfdən, bu gün biz artıq açıq cəmiyyətlə yaşayırıq, qlobal dünyaya inteqrasiya olunmuşuq və müasir gənclər bunun fərqindədirlər. Onlar xarici ölkələrdə müxtəlif imkanlardan yararlanmaq, öz bacarıqlarını nümayiş etdirmək və xaricdə həyatlarını, karyeralarını qurmaq istəyirlər.

Xaricə təhsil məqsədilə gedən gənclərin sayında ciddi artım müşahidə olunur. Əlbəttə ki, onların bir qismi təhsilini başa vurduqdan sonra vətənə qayıdır, lakin bir hissəsi təhsildən sonra da xarici ölkələrdə işləməyə qərar verir. Ancaq bütün bunlara baxmayaraq, bu gənclər Azərbaycanla bağlılıqlarını itirmirlər. Azərbaycan gəncliyi dövlətinə, xalqına, Vətəninə bağlı gənclərdir. Bu baxımdan, biz əslində çox dəyərli və vətənpərvər bir gəncliyə sahibik. Demək ki, xaricdə yaşayan gənclərin Azərbaycana qayıtması üçün, ilk növbədə onların məşğulluq məsələləri ön planda olmalıdır. Onların əmək bazarında daha layiqli mövqe tutmaları üçün xüsusi dövlət siyasəti həyata keçirilə bilər. Eyni zamanda, mənzillə təminat məsələsi ilə bağlı da əlavə dəstək proqramlarının tətbiqi faydalı ola bilər. Doğrudur, bu istiqamətdə Azərbaycanda artıq müəyyən dövlət proqramları və təşəbbüslər mövcuddur. Həmçinin xaricdə təhsil alan gənclərin dəstəklənməsi məqsədilə müxtəlif dövlət proqramları fəaliyyət göstərir. Ancaq xaricdə təhsil alıb geri dönən gənclərə daha yüksək təminatlı iş yerləri təklif olunmalıdır. Eyni zamanda onların yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində, məsələn, Mənzil Fondu vasitəsilə dəstək göstərilməsi də önəmlidir".

"Gənclərin məşğulluğu ilə yanaşı, onların mənzillə təmin olunması ilə bağlı əlavə dəstək tədbirləri də tətbiq edilməlidir ki, xaricdə olan gənclərin bir qismi vətənə qayıtsın və burada öz töhfəsini versin. Hesab edirəm ki, bu istiqamətdə dövlətin həm ağıllı, həm də davamlı siyasəti mövcuddur. Artıq müəyyən addımlar atılır ki, xaricdə təhsil alıb geri dönən gənclər Azərbaycan iqtisadiyyatına fayda verə bilsinlər. Çünki bizdə böyük potensiala malik olan gənc nəsil mövcuddur. Azərbaycan hər zaman zəhmətkeş, təşəbbüskar və savadlı insan kapitalına malik olub. Bu baxımdan gənclərin məşğulluğu, onların təhsili və karyerası dövlət siyasətinin daim prioritet istiqamətlərindən biri olub. Məhz bu istiqamətdə də ağıllı və davamlı siyasət həyata keçirilir və gənclərin potensialı milli inkişaf üçün səfərbər edilir. Əlbəttə ki, bu sahədə dövlətin strateji yanaşması mövcuddur. Şübhəsiz ki, bu strategiya gənclərin məşğulluğu, təhsili, mənzillə təmin olunması və digər sosial məsələləri əhatə edir. Məncə, bu istiqamətdə məqsədyönlü gənclər siyasəti həyata keçirməklə biz xaricdə təhsil alan gənclərin daha böyük qismini vətənə qaytara, onları dövlət həyatına və ölkə iqtisadiyyatına töhfə verməyə təşviq edə bilərik" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Azərbaycan Ordusu güclü ordular sırasındadır




*İlham QAYIBZADƏ,*
*Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Binəqədi rayon filialının sədri, 2-ci qrup Qarabağ müharibəsi əlili*

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da ordu quruculuğu istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün – 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Görkəmli siyasi xadim Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarı ilə yeni inkişaf mərhələsidir. Ümummilli Lider 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Müstəqillik illərində ordu quruculuğu prioritet istiqamət oldu. Azərbaycan NATO ilə əməkdaşlıq əlaqələri qurdu. 1990-cı illərin ortalarından başlayaraq, Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan, öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

Müdafiə Sənayesi Nazirliyində 400-dən çox müdafiə təyinatlı məmulatın istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindəndir. Bu nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir.

Prezident İlham Əliyev tərəfindən Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsinə, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə hər zaman xüsusi diqqət yetirilir. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Ölkəmizin son illərdə dinamik inkişafı silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması Prezidentin Ordu quruculuğu ilə əlaqədar öz vədinə sadiq olduğunu təsdiq edir.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Sözügedən qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Buna müvafiq olaraq büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin imkanları da genişlənir.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə cari ildə Milli Müdafiə Universiteti yaradılıb. Prezidentin 2022-ci il 5 mart tarixli Fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişikliklər edilib. Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olunub, onun maddi-texniki bazası əsasında iki müstəqil institut yaradılıb: Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirəcək. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verilib.

Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə nəticələnən Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuz 2020-ci il 27 sentyabrda əks hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Bu gün Azərbaycan Ordusunun gücünün beynəlxalq ictimaiyyət tərəfindən etiraf edilməsi qürurvericidir. Vətən müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir.



# İctimai və dövlət maraqlarının müdafiəsi ictimai şüurun ayrılmaz tərkib hissəsidir

***Müstəqil, suveren, hüquqi dövlətin mövcudluğunun əsasını ilk növbədə ictimai və dövlət maraqlarının qorunması təşkil edir. İctimai və dövlət maraqlarının əsasında isə vətəndaş məsuliyyəti, milli həmrəylik, strateji dövlətçilik təfəkkürü dayanır. Təsadüfi deyildir ki, bizim vətənimizdə məhz vətəndaş məsuliyyəti, milli həmrəylik hüquqi norma deyil, milli ideologiyanın, dövlət siyasətinin əsası olaraq qəbul edilir. Sevindirici haldır ki, ictimai və dövlət maraqları ölkəmizdə məhz ictimai şüurun ayrılmaz tərkib hissəsinə çevrilib.***

### İctimai və dövlət maraqlarımızın qorunması, müdafiəsi cəmiyyətimiz üçün ən önəmlidir

İctimai maraqlarımızın müdafiəsinin bizim məhz milli birliyimizin, eləcə də dövlətçiliyimizin ən ali ifadəsi və əsası olduğuna 44 günlük Vətən müharibəsində bir daha əmin olduq. Əmin olduq ki, ictimai və dövlət maraqlarının hər şeydən üstün tutulması bizi fasiləsiz və inamlı, əsaslı şəkildə qələbələrə daşıyır. Zərrə qədər də şübhə qalmadı ki, cəmiyyətimiz üçün ictimai və dövlət maraqları ən öndə olandır. Təkcə vətəndaşlarımız, həmvətənlərimiz deyil, bütün dünya ictimaiyyəti də bir daha əmin oldu ki, ictimai və dövlət maraqlarımızın qorunması, müdafiəsi ictimaiyyətimiz üçün ən önəmlidir. Bu isə onu deməyə əsas verir ki, həmin maraqların qorunması ictimai şüurumuzun tərkib hissəsi olduğuna qətiyyən şübhə ola bilməz.

Torpaqlarımızın işğaldan azad olunması zamanı, daha dəqiq desək, 44 günlük müharibə zamanı xalqımızın bir yumruq halında birləşməsinin şahidi olduq. Şahidi olduq ki, ölkə vətəndaşlarımız məhz siyasi, etnik və hərhansı mənsubiyyətindən asılı olmayaraq, birlik həmrəylik nümayiş etdirdilər. İstər dövlət qurumları olsun, istər dördüncü hakimiyyət sayılan media olsun, istər qeyri-hökumət təşkilatları olsun, istərsə də hərhansı bir həmvətənimiz ilk növbədə, ədaləti və qəbul olunmuş beynəlxalq qanunları, norma və prinsipləri rəhbər tutaraq, hər biri ictimai maraqlardan çıxış etdi və xalqımıza məxsus olanları elə buna görə də ən tez zamanda geri aldıq və onlara tam olaraq sahib çıxdıq.

### Ölkəmizdə xalq, cəmiyyət, vətəndaş tərəfindən ictimai və dövlət maraqlarının müdafiəsi yüksək səviyyədədir

Heç şübhəsiz ki, Azərbaycanda cəmiyyətin, ictimaiyyətin maraqlarının dövlət tərəfindən qorunduğu təkzibedilməzdir. Bunun bariz nümunələrini istənilən sferada, istənilən istiqamətdə müşahidə edə bilirik. Təkcə biz, ölkə vətəndaşları deyil, dünya ictimaiyyəti də bunu müşahidə edir. Müşahidə edir ki, Azərbaycan vətəndaşlarının, ölkə ictimaiyyətinin maraqları, milli maraqlarımız dövlətimiz tərəfindən qorunur, müdafiə edilir və diplomatik görüşlər, danışıqlar zamanı da məhz milli maraqların ön planda olduğu diqqətdən yayınan deyil və dəfələrlə də öz təsdiqini tapıb. Məsələ burasındadır ki, cəmiyyətin, ictimaiyyətin maraqları dövlət tərəfindən müdafiə edildiyi kimi, dövlətin maraqları da ictimaiyyət, cəmiyyət tərəfindən qorunmalıdır. Sevindirici haldır ki, qorunur da. Əlbəttə ki, ictimai və dövlət maraqlarının müdafiəsinə eyni dərəcədə önəm verilməsinin əsl nümunəsi kimi bizim ölkəmiz dünya dövlətləri üçün bir örnək belə sayıla bilər. Çünki, ictimai və dövlət maraqlarının müdafiəsinə nəzər salsaq görərik ki, ölkəmizdə xalq, cəmiyyət, vətəndaş tərəfindən bu maraqların müdafiəsi yüksək səviyyədədir.

Xalqımızın hər zaman öz dövlətinə inandığının, dövlət maraqlarını qoruduğunun hər an şahidi olmuşuq və bir daha təkrarən qeyd edirik ki, 44 günlük Vətən müharibəsi də bunu, bu həqiqəti təsdiq etdi. Təsdiq etdi ki, Azərbaycanda xalq və dövlət arasında yüksək inam və bağlılıq mövcuddur. Ali Baş Komandanımızın, cənab Prezident İlham Əliyevin bir əmri ilə səfərbər olan müzəffər ordumuzun arxasında dövlətimizlə yanaşı xalqımızın da dayandığının bütün dünya şahidi oldu. Şahidi oldu ki, Azərbaycanda xalqla, cəmiyyətlə dövlət arasında qırılmaz tellər, bağlar mövcuddur və bu münasibətləri sarsıtmaq mümkünsüzdür. Bu isə onu deməyə əsas verir ki, ictimai və dövlət maraqlarının müdafiəsi ictimai şüurun artıq ayrılmaz tərkib hissəsi olaraq, çoxdan qəbul edilməkdədir.

### İctimai şüurun ayrılmaz tərkib hissəsinə çevrilən ictimai və dövlət maraqları ölkəmizdə qorunmaqdadır

Hər bir vətəndaş öz xalqının, öz ölkəsinin dünya ölkələri arasında, beynəlxalq miqyasda nüfuzunun durmadan artmasına çalışmalıdır və ən qürurverici hal odur ki, bunu bizim cəmiyyətimiz, vətəndaşlarımız çox yüksək səviyyədə qəbul edir və bunun üçün çalışırlar da. Ölkəmizi, xalqımızı bütün dünyada təmsil edən vətəndaşlarımız hər zaman milli maraqlarımızdan çıxış edirlər. Bunu bir çox istiqamətlərdə, məsələn, diplomatik münasibətlərdən, görüşlərdən, danışıqlardan, əlaqələrdən tutmuş, idman yarışlarına qədər müşahidə etməkdəyik. Daim ən yüksəkdə, ən öndə olmaq üçün çalışıldığı əldə edilən uğurlarda bir daha özünü göstərir. Ölkəmizin hüdudlarından kənarda yaşayan həmvətənlərimizin, diasporlarımızın, lobbilərimizin fəaliyyətinə nəzər saldıqda bir daha əmin oluruq ki, milli maraqlarımız, ictimai və dövlət maraqları bizim üçün ən önəmli, hər şeydən vacib sayılır.

Öz ölkəsinin dünya dövlətləri arasında yüksəlişini, inkişafını, eləcə də gücünün, qüdrətinin, nüfuzunun artmasını görmək istəyən, bunu arzulayan hər bir vətəndaş, eləcə də hər bir həmvətənimiz dövlət maraqlarının müdafiəsində öz üzərinə düşən məsuliyyəti dərk etmiş sayılır. Necə ki, dövlət öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyi, ölkədə sabitliyin, əmin-amanlığın qorunmasını, ərazi bütövlüyünün, sərhədlərinin, hər qarış torpağının mühafizəsini, ölkəsinin inkişafını, cəmiyyətin rifah halının daha da yüxsəlaşdırılmasını ümdə vəzifə hesab edir, vətəndaş da öz növbəsində dövlət maraqlarını qorumalıdır. Torpaqlarımızın işğaldan azad edilməsi, xalqımıza məxsus olan dəyərlərə sahib çıxılması, bunun üçün cəmiyyətimizin apardığı mübarizə, döyüş zamanı qəhrəmancasına mücadilə edilməsi ilə təsdiq olundu, xüsusən də, savaş zamanı canını, qanını əsirgəməyənlər bir daha sübut etdilər ki, ölkəmizdə ictimai və dövlət maraqları qorunur. Eyni zamanda, müharibədən sonrakı dönəmdə işğaldan azad edilən ərazilərdə quruculuq, abadlıq işlərinin görülməsində cəmiyyətimizin yaxından, özü də böyük həvəslə, ruh yüksəkliyi ilə iştirak etməsi özü də təsdiq etdi ki, bizdə ictimai və dövlət maraqları məhz ictimai şüurun ayrılmaz tərkib hissəsinə çevrilib.

***İnam Hacıyev***

# Urbanizasiya: şəhərlər "partlayır", kəndlər boşalır



*Urbanizasiya dünyanın bir çox yerində sürətlə artan bir fenomendir. İnsanlar kənd yerlərindən uzaqlaşaraq şəhərlərdə yaşamağa başlayırlar. Şəhərlərə bu sürətli köçün əsas səbəblərindən biri də kənd təsərrüfatı işlərində texnoloji imkanlardan maksimum istifadədir. Köçlərin səbəblərindən biri daha çox texnika ilə görülən işlər nəticəsində kənd yerlərində fermerlərə ehtiyacın azalması ilə əlaqədardır. Daha aydın desək, texnoloji inkişaf kəndlinin işini və mühitini əlindən alır. Şəhərsalma əhəmiyyət kəsb etdikcə və ya şəhərlər daha vacib hesab edildikcə vəziyyət daha da çətinləşəcək.*



### Şəhər həyatı daha əlverişlidir?

Şəhər anlayışı dinamik bir anlayışdır, çünki tarix boyu mənasını daim dəyişib. Həyat tərzləri bir-birinə bənzəməyən insanların bir araya gələrək yaratdıqları ortaq qaydalara riayət etmələri ilə şəhərlər yarandı. Şəhərləri, məkanı, əhalisini tədqiq edərkən iqtisadi, sosioloji, siyasi, mədəni və s. baxım aspektləri də nəzərə alınmalıdır. Bu baxımdan, şəhər anlayışına zaman və ölkələrdən asılı olaraq müxtəlif mənalar verilib.

Xüsusilə, sənaye inqilabından sonra urbanizasiya prosesinin artdığı müşahidə edildi. Məlumdur ki, sənaye inqilabından sonra iş imkanlarının artması və daha əlverişli yaşayış şəraiti hesabına urbanizasiya artdı. Yəni, başqa sözlə, urbanizasiya şəhərlərdə dəyişən davranış modellərinə və ümumi qaydalar toplusuna uyğunlaşma prosesidir.

### Şəhərdə iş imkanları axına səbəb olur

Urbanizasiyanın iqtisadi səbəbləri daha çox şəhərlərin təklif etdiyi bir çox iqtisadi üstünlüklərlə bağlıdır. Şəhərlərdə çoxlu mütəxəssisə ehtiyac var. Digər tərəfdən, xüsusən də inkişaf etməmiş ölkələrdə kənd təsərrüfatının məhsuldarlığı və adambaşına düşən kənd təsərrüfatı gəliri kəndliləri öz kəndlərində saxlamaq üçün çox aşağıdır. Qeyri-kafi gəlir, kənd təsərrüfatına yararlı torpaqların azalması, su problemləri, iqlim şəraiti bu təkanverici amilləri gücləndirən səbəblərdir. Kəndin və şəhərin həyat tərzləri arasındakı fərqdə də sosial-psixoloji səbəblər ortaya çıxır. Şəhərin azad ab-hava təklif etməsi, şəhərli olmağın üstünlük hesab edilməsi, şəhərdə mövcud olan sosial-mədəni imkanlar və xidmətlər şəhəri cəlbedici edir.

Dünya əhalisinin yarıdan çoxunu öz ağuşuna alan şəhərlərin bu inkişaf prosesinin heç bir problem yaratmadığını düşünmək son dərəcə səhvdir. İngiltərə kimi sənayeləşmənin ilk yarandığı ölkələrdə belə, insanların şəhərlərə sıxışdırılmasının yaratdığı problemlər və şəhərlərin bu problemlərin öhdəsindən gəlmək imkanları uzun müddət çəkdi. İnkişaf etmiş ölkələrin şəhərləri, iqtisadi inkişaf və sənayeləşmə səbəbindən doğru miqrasiya axınına ehtiyac duysa da, bu köçün də bir həddi var. Bir çox ölkələrdə şəhərlərdə yaşayanların sayı kənd yerlərində yaşayanların sayından qat-qat artıqdır.

### Şəhərləşmə = laqeydləşmə

Urbanizasiya anlayışı şəhərləşmə prosesi ilə bağlıdır. Həddindən artıq izdihamlı bir mühitdə hər kəsin yalnız özünü düşündüyü və başqalarını nəzərə almadığı bir həyat tərzi şəhərləri ancaq bitməztükənməz problemlər mərkəzinə çevirir. Odur ki, urbanizasiya anlayışı bir tərəfdən qayda-qanunlu həyatı təlqin edir, bir tərəfdən də bu təlqin dünyaya baha başa gəlir, şəhərlərə axın sayəsində dünyanın tarazlığı pozulur, insani münasibətlər azalır, ünsiyyət problemləri kök salır.

1950-ci ildə dünya əhalisinin 30%-i şəhərlərdə yaşayarkən 2010-cu ildə bu nisbət 50%-i (3,3 milyard nəfər) ötmüşdü. 2030-cu ildə şəhər əhalisinin 60%-, 2050-ci ildə 70%-ə çatacağı təxmin edilir. Beləliklə, 2030-cu ildə dünyada şəhərlərdə 5 milyarddan çox insan yaşayacaq. Növbəti onillikdə urbanizasiya, xüsusilə, Çin və Hindistanda böyük şəhərlərə təsir edəcək.

### Kəndlərin taleyi necə olacaq?

Sürətli urbanizasiya mənzil, ünsiyyət, ekoloji çirklilik, boş ərazilərin itirilməsi, nəqliyyat kimi problemlərə səbəb olur. Sənaye inkişafı olan ölkələrdə kənddən şəhərə miqrasiya kənd təsərrüfatı sahələrində işləmək üçün işçi qüvvəsinin azalmasına səbəb olur. Bu vəziyyətdən xüsusilə şəhər yerlərində yaşayan insanlar zərər görür. Bunun səbəbi də iş uğrunda rəqabətin çoxalması iş tapa bilməməlidir.

Şəhər insan münasibətləri baxımından fizioloji, iqtisadi, sosial və mədəni ehtiyacların müəyyən səviyyədə ödənildiyi yerdir. Başqa sözlə, şəhərlər daha yaxşı təhsil, səhiyyə və s. vəd edir. Yaxşı xidmət istəyən, karyerasında yüksəlmək istəyən, daha çox gəlir əldə etmək istəyən, daha gözəl və daha yaxşı mənzil istəyən insanlar üçün şəhərlər daha ideal yaşayış mərkəzi hesab edilir. Verdiyi imkanlara görə cazibədar görünən şəhərlər kənd insanlarını beləcə öz məngənəsinə salıb əzir. Kənddə işi olan, olmayan hər kəs bu işıltıya aldanır. Nəticədə kənd təsərrüfatı məhv olur, kəndlərdə mədəni həyat sönür.

### Urbanizasiya: mənfisi, müsbəti nədir?

Şəhərlərə miqrasiya təkcə binaların sayının artmasına səbəb olmur, həm də küçələrin və infrastrukturların çoxalmasını sürətləndirir. Bundan əlavə, bu, mövcud şəhərlərin genişlənməsinə təsir edir və şəhərin təbii ərazilərini məhv edir. Dünyada urbanizasiya sürətlə inkişaf edir. Bununla belə, sürətli urbanizasiya müsbət və mənfi cəhətləri də gətirir.

Müsbət cəhətləri sadalasaq, daha çox yaşayış sahəsi təmin etməsini misal göstərmək olar. Urbanizasiya üfüqi inkişafa deyil, şaquli inkişafa aiddir. Urbanizasiyanın sonunda şəhərlərdə tikilən hündürmərtəbəli binalar buna tipik nümunədir. Bu formada daha çox yaşayış sahəsi təmin edilir və bu əhalisi sürətlə artan ölkələr üçün optimal variantdır.

Daha bir müsbət tərəfi enerji səmərəliliyinin artmasıdır. Məsələn, fərdi evin isidilməsinə sərf olunan enerji, bir yaşayış binasının isidilməsinə sərf olunan enerjidən qat-qat çoxdur. Başqa üstünlükləri iş imkanları, yaxşı təhsildir. Təhsil səviyyəsi urbanizasiyanın əsas üstünlükləri arasındadır. Şəhər yerlərində doğum səviyyəsi kənd yerlərindən aşağıdır. Bu, əhali artımının yaratdığı ekoloji deqradasiyanı azaldan amildir və əhalisi sürətlə artan ölkələr üçün əlverişlidir.

Lakin urbanizasiyanın üstünlüklərindən çox zərərləri olduğunu da etiraf etmək lazımdır. Urbanizasiya həddindən artıq istiləşməyə səbəb olur. Misal üçün, asfalt yollar, daş-beton binalar gündüz özlərinə hodurduqları istiliyi gecələr buraxaraq iqlimin həddindən artıq istiləşməsinə səbəb olur. Havanın çirklənməsi də şəhərlərin əsas problemlərindən biridir, əhali sıxlığı artdıqca bu problem də böyüyür.

Urbanizasiya nəticəsində yaranan ən mühüm problemlərdən biri su ehtiyatlarının çirklənməsi və azalmasıdır. Xüsusilə böyük şəhərlərdə həddindən artıq su istehlakı su ehtiyatlarını çox təhlükəli səviyyələrə çatdırıb. Şəhər strukturlaşması suyun hidroloji dövranını da pozur. çünki suyun çirklənməsinə səbəb olan ən böyük amil kanalizasiyadır.

### Şəhərləşməli, ya kəndləşməli?

Şəhərlər dünyanın ümumi ərazisinin təxminən 1%-ni əhatə edir. Hazırkı sürətlə davam edən şəhər genişlənməsi Yer kürəsində yaşana bilən yerlərin azalması ilə nəticələnəcək. Şəhərlərin həddindən artıq böyüməsinin başqa bir mənfi təsiri, artan xərclər səbəbindən əlavə iqtisadi və maliyyə yükü gətirməsidir.

Urbanizasiyanın yaratdığı bu problemləri həll etmək üçün bir çox üsullar təklif olunur. Bunlardan bəziləri şəhərlərdə sıx əhalinin azaldılması və genişlənməsinin qarşısının alınmasıdır, amma bəzi araşdırmalar yeni şəhərlərin yaradılmasını təklif edir. Şəhərlərin sürətli böyüməsi, şəhərdə binalara tələbatın artması və buna paralel olaraq kirayə qiymətlərinin artması qeyri-qanuni tikintilərə də səbəb olur. Urbanizasiyanın digər nəticəsi doğum nisbətinin azalmasıdır. Xüsusilə inkişaf etmiş ölkələrdə şəhərlərdə doğum səviyyəsi kənd yerlərindən aşağıdır, bu da ölkənin demoqrafik vəziyyətinə təhlükə yaradır.

Paytaxta təhsil dalınca gələn gənclər də urbanizasiyaya öz "töhfə"lərini vermiş olurlar. Belə ki, onlar şəhərdə daha yaxşı karyera imkanları olduğunu düşünərək təhsilini bitirdikdən sonra geri qayıtmaq istəmirlər. Kəndlərdə, rayonlarda məhdud iş yerləri onların bu qərarında haqlı olduğunu göstərir.

***Lalə Mehralı***


## ELAN

### Hörmətli "Bakı-Pivə" ASC səhmdarı,

Bakı-Pivə" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq Sizin nəzərinizə çatdırır ki, 23.07.2025-ci il tarixində saat 10:00-da AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 ünvanında Cəmiyyətin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Bakı-Pivə" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə uyğun olaraq səsvermənin qiyabi şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. Səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilir :

**1.** Növbədənkənar ümumi yığıncağın sədri və katibin seçilməsi.

**2.** Hesablama komissiyasının buraxılması və yeni üzvlərinin seçilməsi.

**3.** Cəmiyyətin aidiyyəti şəxs olan "Carlsberg Azerbaijan" MMC ilə bağlanılması nəzərdə tutulan AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 ünvanında yerləşən ofis binasının və istehsalat sahəsinin alqı-satqısına dair əqdin təsdiq edilməsi.

Növbədənkənar ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səsvermə bülleteni 20.06.2025-ci il tarixindən etibarən hər bir səhmdara gündəlikdəki məsələlərə dair materiallar və məlumatlarla tanış ola bilməsi üçün bildirişə əlavə olunmuş qoşma şəklində göndəriləcəkdir.

Hər bir səhmdar növbədənkənar ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini (bülleteni çap edərək müvafiq qaydada dolduraraq) dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf) iştirak edə bilər (gündəlikdəki hər bir məsələyə ayrı-ayrılıqda münasibət bildirməklə) və imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, həmçinin şəxsiyyətinizi təsdiq edən sənədin surətini təqdim etmək (bülletenə əlavə etmək) şərti ilə qapalı zərfdə AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 poçt ünvanına bülletenlərin qəbulu üçün nəzərdə tutulmuş son tarix olan 22.07.2025-ci il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilər. Bülletenlər, onların qəbulu üçün nəzərdə tutulmuş müddətdə təqdimetmişlər, qiyabi şəkildə keçirilmiş növbədənkənar yığıncaqda iştirak etmiş hesab edilirlər.

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, verilmiş səslərin sayılması növbədənkənar ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

# Yoqa: zehnin, bədənin və dövrün dostu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb.*



***Yoqa gündəlik həyatımızda çox rastlaşdığımız, haqqında çox eşitdiyimiz bir anlayışdır. Bir çox hallarda biznesə çevrilməsinin, gəlir mənbəyi olaraq istifadə edilməsinin də şahidi oluruq. Lakin çoxumuz hələ də yoqanın nə olduğunu tam olaraq anlamaqda çətinlik çəkirik. Ümumiyyətlə, yoqanı yalnız fiziki məşqlərdən və ya meditasiyadan ibarət bir idman növü hesab etmək doğru deyil.***







Yoqa nəfəs məşqləri, bədən hərəkətləri, zehni meditasiyalardan ibarət vahid sistem, daha dəqiq desək həyat tərzidir. Yoqanın Hindistanda eramızdan əvvəl 5000-ci ildə kəşf edildiyi düşünülür. Yoqa, ağıl və bədən arasındakı əlaqəni gücləndirmək məqsədi daşıyır. Zehin-bədən əlaqəsi yoqa zamanı icra edilən bədən pozalarını müşayiət edən düzgün nəfəsalma üsulları ilə gücləndirilir. Bu səbəblə yoqa stresin idarə edilməsi, özünüdərkin və şüurun artırılması, fiziki və zehni inkişaf üçün müasir dövrün trendinə çevrilib.

Yoqanin bir çox istiqaməti var, hər bir yoqa istiqaməti müxtəlif aspektləri hədəfləyir. Bəziləri fiziki məşqlərə üstünlük verir, bəziləri doğru nəfəs almağı öyrədir, bəzisi beyini idarə etməyi. Bu yanaşmaların demək olar ki, hamısının məqsədi zehni və fiziki inkişafı, kontaktı artırmaq və bədəni həmişə diri saxlamaqdır. Yəni, minlərlə il yaşı olan bir elmi eyni sistem və ya eyni yanaşma kimi qəbul etmək doğru deyil. Yoqa özündə onlarla yanaşmanı birləşdirən unikal və kompleks həyat tərzidir.

Ən çox müraciət edilən yoqa istiqamətlərindən biri bərpaedici yoqadır. Bu növ yoqa pozaları, yastıqlar və digər köməkçi vasitələrdən istifadə etməklə həyata keçirilir. Əsas məqsəd istirahət və dincliyi təmin etməkdir. “Ashtanga” adlanan növ hərəkətlərlə balanslı nəfəs nəzarətini özündə ehtiva edir, həm hərəkət, həm də nəfəs alıb-vermə arasında sürətli keçidlərdən istifadə etməklə həyata keçirilir. “Iyengar” yoqa növü pozalar üzərinə fokuslanaraq edilir. “Kundalini” yoqası çakralar adlanan enerji mərkəzlərini stimullaşdırmaq üçün nəfəs alma, hərəkət və meditasiya üsulları ilə tətbiq edilir. “Bikram” yoqa növü isti bir mühitdə tətbiq edilən və müəyyən bir hərəkət kompleksi ilə edilir.

Yoqa, rifahı və tarazlığı artırmağı hədəfləyən bir fəlsəfəyə malikdir. İnsanı rahatlaşdıran fiziki və nəfəs məşqlərini ehtiva etdiyi üçün psixoloji təsirləri də həmişə maraq doğurub. Bu səbəblə yoqa, fiziki məşqlərlə insanların fiziki elastikliyini, koordinasiyasını və gücünü artırırsa, tənəffüs məşqləri ilə də insanları sakitləşdirmək, stress və narahatlığı azaltmaq və diqqəti artırmaq kimi faydalar verir. Araşdırmalar, yoqanın nizamlı olaraq tətbiq edildiyi zaman ruh sağlamlığımıza bir çox faydalı təsirinin olduğunu göstərir.

Yoqa müntəzəm olaraq edildikdə qan təzyiqini aşağı salır, stressin fiziki təsirlərini azaldır, maddələr mübadiləsini tənzimləyir, əzələ ağrılarını azaldır və immuniteti gücləndirir, əzələ gərginliyi azalır, bədən elastiklik qazanır. Arxa, boyun və bel əzələləri güclənir, onurğa ağrıları azalır, ürək-damar funksiyaları yaxşılaşır, miqren və baş ağrıları azalır, yuxu keyfiyyəti yüksəlir. Yoqa immunitet sistemini dəstəkləyir, psixi sağlamlığa bir çox müsbət təsir göstərir. Yoqa ilə məşğul olmaq bədən və zehin kontaktını gücləndirir. Diqqət toplamaq qabiliyyəti artır, insan stressi daha asan idarə etməyi və ruhi istirahət etməyi öyrənir, motivasiya və enerji səviyyəsi yüksəlir, düşüncə və hisslərdəki təlatümlər azalır, emosional tarazlıq artır, qəfil reaksiyalar azalır. Yoqa ilə məşğul olan insan narahatlığını daha asan idarə edə bilir.



Daimi yoqa bunlardan əlavə müasir dövrün insanına çoxsaylı faydalar verir. Bu istiqamətdə edilən bir çox araşdırma, yoqa hərəkətlərinin və tənəffüs məşqlərinin depressiya əlamətləri və narahatlığı azaldan təsirə malik olduğunu göstərir. Nadir hallarda etdiyimiz və vərdiş etmədiyimiz bir çox şeyin uzunmüddətli faydalarını görə bilmədiyimiz kimi, yoqa da müntəzəm olaraq tətbiq edilərsə təsirini görə bilərik. Yoqa müntəzəm olaraq həyata keçirildikdə həyat keyfiyyətimizi, şüurumuzu, diqqətimizi və emosional tənzimləmə bacarıqlarımızı artırır, dövrün stressinə, narahatlığına, qaynar həyat tərzinə sinə gərməyə kömək edir. Əgər gərgin işləyiriksə yoqa bizim üçün yaxşı dincəlmə üsulu ola bilər. Hər gün işdən sonra, yaxud da yuxudan oyandıqda nizamlı olaraq yoqa hərəkətləri etmək həm fiziki, həm də zehni olaraq bir çox fayda verər.







Müasir dövrdə yoqa qlobal miqyasda böyük bir biznes sektoruna çevrilib. İndi yoqa dərsi verənlər də çoxdur, bu dərslərə qatılmağa maraqlı olanlar da. Yoqa studiyaları həm qruplar, həm də fərdi formada dərslər verir. Online yoqa kursları, pullu tətbiqlər vasitəsi ilə də kifayət qədər çox vəsait əldə edilir. O cümlədən, yoqa müəllimi yetişdirmə proqramları da var ki istənilən şəxs o kurslara qatılıb yoqa müəllimi sertifikatı əldə edə bilər. Yoqada istifadə edilən əşyalar, alətlər, geyimlər də bu sahədə biznes quranlara yaxşı gəlir gətirir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

21 iyun
2025-ci il

# DİQQƏT: Onlayn satış edənlər artıq vergi ödəyəcəklər

## İnformasiya texnologiyaları üzrə mütəxəssis mühüm məqamlara aydınlıq gətirdi

***"Hazırda elektron ticarət çox sürətlə inkişaf edir. İnsanlar artıq mağazaya getməkdənsə, məhsulları internet üzərindən alırlar. Bu sahənin böyüməsində informasiya texnologiyalarının (İT) böyük rolu var". Bu sözləri SİA-ya açıqlamasında informasiya texnologiyaları üzrə mütəxəssis Fərid Əmirov deyib.***




Onun sözlərinə görə, satışlar üçün xüsusi onlayn saytlar (məsələn, Trendyol, Amazon) və sosial şəbəkə-



lərdən istifadə olunur: "Ödənişlər bank kartı, mobil tətbiqlər və digər rəqəmsal yollarla aparılır. Dövlət orqanları bu satışları izləmək və vergi toplamaq üçün elektron sistemlər yaradır (e-qaimə, e-vergi sistemləri və s.). Bütün bu sistemlərin işləməsi üçün güclü İT infrastrukturu lazımdır – yeni serverlər, təhlükəsizlik sistemləri, proqram təminatları və s.

Onlayn satış edənlər artıq qeydiyyatdan keçməli və vergi ödəməlidirlər. Dövlət bu sahəni nəzarətdə saxlamaq üçün elektron sistemlər qurur. Bu sistemlər sayəsində satışlar avtomatik olaraq vergi orqanlarına ötürülür və uçot aparılır.

**Bəs bu sahədə gələcəkdə nə gözlənilir?**

Blokçeyn texnologiyası – Alqı-satqı əməliyyatları daha şəffaf və saxtakarlıqdan uzaq olacaq. Süni intellekt – Müştərilərə uyğun təkliflər veriləcək və vergi sistemləri ağıllı şəkildə idarə olunacaq.

- Bütün satış kanallarının birləşməsi – Fiziki mağazalar və onlayn satış bir sistem üzərindən idarə olunacaq.

-Avtomatik vergi hesabatı – Satış etdikcə vergi avtomatik hesablanacaq və göndəriləcək

- Bulud texnologiyaları – Bütün məlumatlar internetdə təhlükəsiz şəkildə saxlanacaq və istənilən yerdən istifadə olunacaq.

Nəticə olaraq deyə bilərik ki, Elektron ticarət həm alıcılar, həm də satıcılar üçün rahatlıq yaradır. Eyni zamanda dövlət bu sahəni nəzarətdə saxlamaq üçün vergi sistemlərini rəqəmsallaşdırır. Gələcəkdə bu sahə daha ağıllı, şəffaf və təhlükəsiz olacaq. Bütün bu inkişafların arxasında isə güclü İT texnologiyaları dayanır" - deyə mütəxəssis əlavə edib.

***Xeyrənsə Piriyeva***

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bəzi sığorta şirkətləri niyə dəymiş ziyanın tamamını ödəmək istəmir?

***"Sığorta sisteminin əsas məqsədi insanları və müəssisələri gözlənilməz risklərdən qorumaq və dəymiş zərərləri müəyyən çərçivədə qarşılamaqdır. Lakin bəzi hallarda sığorta şirkətləri baş vermiş hadisəyə görə ziyanın tam miqdarını ödəməkdən imtina edə bilirlər. Bu isə müxtəlif səbəblərlə bağlı ola bilər". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib.***



ŞƏRH

Onun sözlərinə görə, sığorta müqaviləsində qeyd olunan şərtlər çox önəmlidir. Müqavilədəki istisnalar, limitlər və digər texniki detallara əsasən, bəzi hallarda ödəniləcək məbləğ ziyanın real dəyərindən az olur: "Məsələn, əgər sığortalı şəxs avtomobilini bazar dəyərindən daha ucuz məbləğlə sığortalayıbsa, qəza zamanı şirkət yalnız müqavilədə göstərilən məbləğə qədər ödəniş edəcək.

İkincisi, bəzi hallarda sığorta şirkətləri zərərin bir hissəsinin sığortalının öz məsuliyyətsizliyi nəticəsində baş verdiyini irəli sürürlər. Məsələn, sürücünün hadisə zamanı təhlükəsizlik qaydalarına riayət etməməsi və ya avtomobili texniki baxışdan keçirməməsi halında şirkət tam ödəniş etməyə bilər.

Üçüncü səbəb isə dəyərləndirmə prosesindəki fərqliliklərdir.

Zərərin miqdarı bəzən sığorta şirkəti tərəfindən daha az hesablanır, bu isə mübahisələrə səbəb olur. Sığorta şirkətləri bəzən təmir və ya bərpa xərclərini minimum səviyyədə göstərərək ödənişi azaltmağa çalışa bilirlər. Bundan əlavə, bəzi şirkətlər təəssüf ki, mənfəət məqsədilə hər ziyan hadisəsini daha çox araşdıraraq, bəhanə tapıb ödənişi gecikdirə və ya tam ödəməkdən yayınmağa çalışırlar.

Bu da sığortalı şəxslərin narazılığına səbəb olur və sığorta sisteminə olan inamı azalda bilər. Nəticə olaraq, sığorta şirkətinin ziyanı tam ödəməməsinin arxasında ya müqavilə şərtləri, ya zərərin dəyərləndirilməsi, ya da mübahisəli halların olması dayanır. Bu səbəbdən hər bir vətəndaş sığorta müqaviləsi bağlayarkən onun şərtlərini diqqətlə oxumalı, suallarını əvvəlcədən aydınlaşdırmalı və lazım gəldikdə müstəqil ekspert rəyindən istifadə etməlidir".

***Ziya Hikmətoğlu***

# "Bakcell" 4-cü "YAŞAT" düşərgəsinin tərəfdaşıdır

İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi ilə şəhid övladları üçün 4-cü "YAŞAT" yay düşərgəsi təşkil olunub. "YAŞAT" Fondunun təşkilatçılığı ilə keçirilən layihə ümumilikdə 500-dən çox şəhid övladını əhatə edir. Düşərgədə "Bakcell" tərəfindən Azərbaycanın milli qüruru olan şəhid övladlarına "İnnovasiya və süni intellekt" mövzusunda təlim keçirilib. Təlimin məqsədi uşaqlara süni intellektin gündəlik həyatda necə tətbiq olunduğunu göstərmək və onları texnoloji yeniliklərlə tanış etmək olub. Tədbir zamanı praktiki nümunələr, öyrədici oyunlar vasitəsilə iştirakçılara süni intellektin iş prinsipi sadə və maraqlı şəkildə izah olunub. İnteraktiv formada təşkil olunan təlim sual-cavab sessiyası ilə yekunlaşıb.

Bu təşəbbüs "Bakcell"in dayanıqlılıq və korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindəndir. Şirkət gələcək nəsillərin inkişafı üçün sosial layihələr həyata keçirməyə davam edir və bu sahədə fəaliyyətini uğurla genişləndirir. "NEQSOL Holding"in tərkibinə daxil olan "Bakcell" "YAŞAT" Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq "NEQSOL Holding" və "YAŞAT" Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**